RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 246 (8269) ÇƏRŞƏNBƏ AXŞAMI, 5 noyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İslahatlara yeni impuls verilir



## Prezident İlham Əliyev dövlət idarəçiliyi sistemini daim təkmilləşdirir və daha çevik idarəetmə formasının yaradılması istiqamətində ciddi addımlar atır

**"İndi Azərbaycanda gəncləşmə siyasəti aparılır. Bu, təbiidir, nəsillər dəyişir, yeni təfəkkürlü insanlar irəli çəkilir. Bu, təbii prosesdir və biz bu prosesdən kənarda qala bilmərik. Ancaq onu da bildirməliyəm ki, bu, kampaniya xarakteri almamalıdır".**

Bu fikirləri Prezident İlham Əliyev Yevlax və Xaçmaz rayonlarına yeni təyin olunmuş icra hakimiyyəti başçılarını qəbul edərkən söylədi. Bir müddət öncə "İslahatlara alternativ yoxdur" və "Kadr islahatları labüddür, qaçılmazdır" fikirlərini səsləndirən dövlət başçısının atdığı addımlar daha çevik idarəetmə formasının yaradılması istiqamətində görülən işlərin davamıdır. Çünki ölkəmizdə uğurlu inkişaf siyasəti bütün sahələrdə nailiyyətlər əldə edilməsinə zəmin yaradır və bu tərəqqinin geniş vüsət almasında kadr islahatlarının rolu böyükdür.

Xatırladaq ki, bir müddət öncə Prezident İlham Əliyevin yanında keçirilən iqtisadi müşavirədə ölkə rəhbəri bu məsələlərə toxunmuşdu. Dövlət başçısı vurğulamışdı ki, islahatlar kursu Azərbaycan cəmiyyətinin, iqtisadiyyatının, siyasətinin, sosial həyatının bütün sahələr üzrə şəffaflaşdırılması, kölgədən çıxarılması, vətəndaşların tam iştirakı ilə qurulması dövlətin iradəsidir və bu iradəyə qarşı çıxanlar cəzalandırılacaq.

Həm iqtisadi, həm də struktur islahatların konturlarını elan edən İlham Əliyevin islahatlar kursu dövlət idarəçilik sisteminin struktur islahatlarından, idarəçilik sisteminin təkmilləşdirilməsindən başladı. Bəzi dövlət qurumları ləğv edildi, bir neçəsi ayrıca xidmət kimi digərlərinə birləşdirildi və həmin təşkilatlarda çalışan insanlar müvafiq sahələrə yerləşdirildi.

Dövlət idarəçiliyi sistemini daim təkmilləşdirən və bu istiqamətdə düşünülmüş addımlar atan cənab İlham Əliyev bu qərarları verərkən xalqın və dövlətin maraqlarını, milli mənafeləri nəzərə alır. Prezident hesab edir ki, XXI əsrdə köhnə təfəkkürlə uğurlara imza atmaq qeyri-mümkündür. Yeni vəzifəyə təyin edilən gənc kadrlar savadlı, bilikli olmaqla yanaşı, vətənə bağlı, hər hansı bir xarici təsirdən azad və vətənpərvər olmalıdırlar ki, ölkənin inkişafı üçün öz səylərini göstərə bilsinlər. Bu, ilk növbədə dövlət rəhbərinin ölkədə müxtəlif sferaların inkişafında gənclərə böyük etimad göstərməsinin əyani təzahürüdür.

Lakin Prezident eyni zamanda qeyd etdi ki, məqsəd yaşlı nəslin vəzifədən uzaqlaşdırılması və ya gənclərin vəzifələrə gətirilməsi deyil. Əsas məqsəd işinin öhdəsindən gələ bilməyənlərin, vəzifəsini düzgün yerinə yetirməyənlərin işindən uzaqlaşdırmaqdır. Hazırda ölkəmizdə çox təcrübəli, işinin öhdəsindən yüksək səviyyədə gələn yaşlı kadrlar var və gənc nəsil onların təcrübəsindən bəhrələnməli, öyrənməlidir.

Qeyd edək ki, bu proses sadəcə kadrların dəyişməsi deyil, həm də idarəetməyə yeni keyfiyyət dəyişikliyinin gətirilməsidir. Prezidentin vəzifələrə təyin etdiyi insanları qəbul etməsi, onlara tövsiyə, tapşırıqlar verməsi ictimaiyyətə çatdırılır. Prezident qəti şəkildə bəyan edir ki, vəzifəsinin öhdəsindən gələ bilməyən, etimadı doğrultmayanlar işdən azad ediləcək və cəzalandırılacaqlar. Bu da həmin kadrların məsuliyyət hissini artırır.

Ardı 3-cü səh.

## Prezident İlham Əliyev Bakı şəhərinin inkişafı ilə bağlı ciddi tapşırıqlar verdi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizovu qəbul edib.

Bax: səh. 2

## Tovuz rayonunda "ASAN xidmət" mərkəzi tezliklə fəaliyyətə başlayacaq

Prezident İlham Əliyev Tovuz rayonunda "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisinin başa çatdırılması ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb

Bax: səh. 2

## Azərbaycanın turizm potensialı Londonda böyük sərgi stendi ilə təbliğ olunur

Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə ölkəmizin nümayəndə heyəti Londonda keçirilən "Dünya səyahət bazarı" ("World Travel Market") sərgisində iştirak edir.

Dövlət Turizm Agentliyindən AZƏRTAC-a bildirilib ki, ölkəmiz sərgidə 12 turizm şirkəti ilə təmsil olunur. 232 kvadratmetrlik sahədə turizm brendinə uyğun olaraq yeni dizaynla qurulan stend Azərbaycanın indiyədək hazırlanan ən böyük sərgi stendidir.

Sərgi ilə bağlı təəssüratlarını bölüşən Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru Florian Zenqstşmid bu tədbirin dünya turizm bazarında yeni əməkdaşlıq və münasibətlərin qurulmasında mühüm rol oynadığını qeyd edib.

O diqqətə çatdırıb ki, 2019-cu ilin yanvar-oktyabr aylarında Azərbaycana səfər edən böyük britaniyalı turistlərin sayı 32 min nəfər təşkil edib və bu, ötən ilin eyni dövrünə nisbətdə 23,5 faiz artım deməkdir.

Xatırladaq ki, 2018-ci ildə reallaşan "Dünya səyahət bazarı" sərgisində Azərbaycanın yeni turizm brendinin beynəlxalq ictimaiyyət üçün ilk genişmiqyaslı təqdimatı keçirilib.

Son bir il ərzində ötən illə müqayisədə ölkəmizə səfər edənlərin sayında 10,9 faiz artım müşahidə olunur.

Azərbaycan 2002-ci ildən etibarən "Dünya səyahət bazarı" sərgisində iştirak edir.

1980-ci ildən bəri hər il keçirilən sərgiyə 182 ölkədən 5 min sərgiçi və turizm sənayesinin 51 mindən çox nümayəndəsi qatılır.

## Türkmənistan Məclisinin Sədri Azərbaycana səfərə gəlib

Türkmənistan Məclisinin Sədri Gülşat Məmmədova noyabrın 4-də Azərbaycana səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, Türkmənistan Məclisinin Sədrini Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycan Milli Məclisi Sədrinin müavini Bahar Muradova və digər rəsmi şəxslər qarşılayıblar.

## Azərbaycanda hər bir seçkini yüksək səviyyədə keçirməklə demokratik dəyərlərə sadiq olduğumuzu bir daha göstəririk

2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyası müxtəlif statuslu seçki subyektlərinin maarifləndirilməsi məqsədilə ardıcıl və sistemli şəkildə genişmiqyaslı layihələr gerçəkləşdirməkdədir.

AZƏRTAC xəbər verir ki, Mərkəzi Seçki Komissiyasının təşkilatçılığı ilə noyabrın 4-də Bakı şəhərindəki "Park İnn" hotelində seçkilərlə bağlı müraciətlərin araşdırılmasına həsr olunan seminar keçirilib. Vətəndaşların seçki hüquqlarını pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədilə dairə seçki komissiyaları nəzdində fəaliyyət göstərən ekspert qrupu üzvlərinin maarifləndirilməsi və fəaliyyətlərinin daha da təkmilləşdirilməsinə yönələn tədbirdə Mərkəzi Seçki Komissiyasının üzvləri, İnsan Hüquqları üzrə Avropa Məhkəməsi yanında Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsi, Mərkəzi Seçki Komissiyası nəzdində ekspert qrupunun üzvləri və Katibliyin təmsilçiləri iştirak ediblər.

Ardı 2-ci səh.

## Bakıda Azərbaycan-Türkiyə yüksəksəviyyəli hərbi dialoq iclası keçiriləcək

Noyabrın 5-də Bakıda Azərbaycan-Türkiyə 12-ci yüksəksəviyyəli hərbi dialoq iclası işə başlayacaq.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə nümayəndə heyətləri işçi qruplarda ikitərəfli hərbi əlaqələrin cari vəziyyətini nəzərdən keçirəcək və qarşıda duran vəzifələrin yerinə yetirilməsi üçün əsas fəaliyyət istiqamətlərini müzakirə edəcəklər.

İclasın Azərbaycan tərəfdən həmsədri Müdafiə nazirinin müavini, general-leytenant Kərim Vəliyev, Türkiyə tərəfdən isə Baş Qərargahın ikinci rəisi, general-polkovnik Metin Gürakdır.

Hərbi dialoq çərçivəsində müzakirələrə noyabrın 7-də yekun vurulacaq.

## Azərbaycan 90-dan çox ölkəyə humanitar və texniki yardımlar göstərib

### Dövlət başçısı Qoşulmama Hərəkatının Zirvə Görüşündə də buna diqqət çəkdi

**Azərbaycanın BMT Baş Assambleyasından sonra 120 əsas, 17 müşahidəçi dövlət və 10 müşahidəçi beynəlxalq təşkilatı birləşdirən Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünə yüksək səviyyədə evsahibliyi etməsi respublikamızın nüfuzunun yüksəlməsini bir daha təsdiqlədi.**

Yarım əsrdən çox bir müddətdə bəşəri dəyərlərin təbliği ilə məşğul olan və dünyanın ən böyük təşkilatlarından sayılan Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünün Azərbaycanda keçirilməsi böyük uğurdur. Prezident İlham Əliyev Zirvə görüşündəki çıxışında bir çox məsələlərlə yanaşı, illərdən bəri Ermənistanın işğalçılıq və təcavüzkarlıq siyasəti nəticəsində ərazilərinin 20 faizdən artıq ilhaq edilməsinə, bunun da müqabilində əhalisinin bir milyondan çoxunun məcburi köçkünə çevrilməsinə baxmayaraq, ən az inkişaf etmiş, dənizə çıxışı olmayan kiçik ada ölkələrinin üzləşdiyi təhdidlərdən söz açdı, onlara humanitar və texniki yardımlar göstərilməsi ilə bağlı fikirlər səsləndirdi: *"Ən az inkişaf etmiş, dənizə çıxışı olmayan kiçik ada ölkələrinin üzləşdiyi təhdidlərə xüsusən diqqət yetirilməlidir. 2005-ci ildən etibarən Azərbaycan 90-dan çox ölkəyə humanitar və texniki yardımlar göstərmişdir. Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyi müxtəlif ölkələrdə yoxsulluğun azaldılması, elm, mədəniyyət, səhiyyə, informasiya texnologiyalarının inkişafı, su resurslarından səmərəli istifadə olunması, qrant proqramları və digər sahələrdə layihələr həyata keçirir".*

Dövlət başçısı qətiyyətlə tələb etdi ki, milli, etnik və məhəlli münaqişələrin, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həllində beynəxlaq birliklərin və nüfuzlu təşkilatların ikili standartlar siyasətinə son qoyulmalıdır: *"1993-cü ildə BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş dörd qətnamədə Ermənistan qoşunlarının Azərbaycanın ərazisindən tam və qeyd-şərtsiz çıxarılması tələb olunmuşdur.*

Ardı 3-cü səh.



## Azərbaycan neftçilərinin qəhrəmanlıq abidəsi

**Neft Daşları unikal sənaye obyekti olaraq dünyada ilk dəniz neftinin hasil edildiyi məkandır.**

"Neft Daşları" yatağı Xəzər dənizinin akvatoriyasında, Abşeron neftli-qazlı rayonunda, Bakı şəhərindən 110, Pirallahı adasından 50 kilometrlik məsafədə yerləşir. Yataq "Neft Daşları" Neft və Qazçıxarma İdarəsi (NQÇİ) tərəfindən istismar olunur. İdarənin istismar etdiyi digər yataq "Palçıq Pilpiləsi"dir. İndiyədək bu yataqlarda 2286 quyu qazılıb, 185 milyon 710 min ton neft, 14 milyard 327 milyon kubmetr qaz hasil edilib.

"Möcüzələr adası" adını almış bu məkan polad dirəklər üstündə qərar tutan əfsanəvi dəniz şəhəri kimi 70 ildir dünyanı heyrətə gətirir.

"Neft Daşları" bir müəssisə kimi şöhrətini qoruyaraq köhnə yataqlarda hasilatı nəinki sabit saxlamağa, hətta artırmağa nail olur.

"Neft Daşları" dərinliyindəki zəngin qara qızıl sərvəti ilə Azərbaycana hələ çox töhfələr verəcək.

Ardı 5-ci səh.

## Ermənistanda əsgər ölümləri gizlədilir

### Həlak olmuş hərbi qulluqçuların valideynləri ədalətli istintaq tələb edirlər

Düşdüyü ağır sosial-iqtisadi böhrandan hələ də xilas ola bilməyən Ermənistanda siyasi durum getdikcə daha gərgin xarakter almağa başlayır. Mövcud hakimiyyətə qarşı etiraz aksiyalarının çoxalması bunun ən real təsdiqi sayılır.

Etiraza çıxanlar hakimiyyətin siyasətinin yanlış olduğunu və ölkənin sürətlə uçuruma doğru yuvarlandığını bildirir və bu səbəbdən Paşinyan hakimiyyətinin heç də uzun olmayacağını bəyan edirlər. Bütün bunların fonunda Ermənistanda yeni etiraz aksiyalarının başlanılması gözlənilir.

Yaranmış durumdan istifadə etməyə çalışan müxalifət Paşinyan iqtidarına qarşı təzyiqləri artıracaqlarını bildirib. Belə vəziyyətdə hakimiyyət üçün daha bir ciddi problem orduda ölmüş hərbi qulluqçuların valideynlərinin dövlət qurumlarının qarşısında mütəmadi olaraq keçirdikləri aksiyalardır.

Qeyri-döyüş şəraitində ölən əsgərlərin valideynləri etiraz aksiyasında bildirirlər ki, Ermənistan ordusundakı korrupsiya və özbaşınalıq yüksək templə artır. Orduda problemlər dözülməz həddə çatıb. Bu problemlərdən də daha çox cəmiyyətin yoxsul təbəqəsi əziyyət çəkir. Təmas xəttində yoxsul insanların övladları ölür. Əsgərlər komandirlərin və özlərindən rütbəcə yüksək olanların pis davranışları ilə üz-üzə qalırlar. Bütün bunlar sosial müzakirələrin aparılmasını qeyri-mümkün edir.

Daxili çəkişmələr, intizamsızlıq, silahla davranma qaydalarının pozulması nəticəsində də ölüm halları baş verib. Əsgər ölümünün çoxalması valideynlərin narahatlığına səbəb olub. Yerli medianın yazdığına görə, Ermənistan hakimiyyəti bütün vasitələrdən istifadə edərək ordudakı neqativ halları və ölüm faktlarını gizlədir. Hərbi hissələrdə əsgərlərin valideynləri ilə əlaqə saxlaması üçün yaradılan internet otaqlarını isə neqativ halların sızmasının qarşısını almaq üçün bağlayıblar. Bütün bu qadağalara baxmayaraq, sosial şəbəkələrdə və açıq mənbələrdə yayılan məlumatların təhlili göstərir ki, Ermənistan ordusunda vəziyyət təsəvvür edildiyindən də qat-qat ağırdır.

Etirazçılar davamlı şəkildə hökumət əleyhinə şüarlar və bəyanatlar səsləndirir, övladlarının ölüm səbəbinin onlara açıqlanmasını tələb edirlər.

Ardı 8-ci səh.

# Prezident İlham Əliyev Bakı şəhərinin inkişafı ilə bağlı ciddi tapşırıqlar verdi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizovu qəbul edib.

AZƏRTAC xəbər verir ki, Bakı şəhərinin inkişafının daim diqqət mərkəzində olduğunu bildirən **Prezident İlham ƏLİYEV** dedi:

- Bilirsiniz ki, mən şəhərdə gedən abadlıq-quruculuq proseslərinə şəxsən nəzarət edirəm, bir çox layihələrin təşəbbüskarı olmuşam. Bu gün Bakı dünyanın ən gözəl şəhəri kimi inkişaf edir. Bakıya gələn qonaqlar, o cümlədən mənim həmkarlarım həmişə paytaxtda gedən quruculuq-abadlıq işləri haqqında öz təəssüratlarını bölüşürlər və qeyd edirlər ki, Bakı doğrudan da dünyanın ən gözəl şəhərlərindən biridir.



Şəhərin ekoloji vəziyyəti yaxşılaşır, bir çox önəmli layihələr icra edilmişdir. Əvvəlki illərdə şəhərin havasını çirkləndirən mənbələr aradan götürüldü. Onların arasında ilk növbədə keçmiş Balaxanı zibilxanasını qeyd etməliyəm. Bu zibilxana elə bir tüstü buraxırdı ki, havanın keyfiyyəti böyük dərəcədə aşağı düşmüşdü və insan sağlamlığına böyük zərər verirdi. İndi keçmiş Balaxanı zibilxanasının yerində müasir poliqon qurulub və zibilin çeşidlənməsi, bərk məişət tullantılarının yandırılması istiqamətində böyük addımlar atılıb, böyük investisiyalar qoyulub, zibilyandırma zavodu inşa edilibdir. Biz bu ekoloji fəlakət mənbəyini aradan götürdük.

Digər ekoloji fəlakət mənbəyi Bibiheybət neft mədənləri idi. Oradakı vəziyyət, ümumiyyətlə, çox acınacaqlı idi, neftlə çirklənmiş yerlər, gölməçələr. Bunların hamısı aradan götürüldü. İndi orada gözəl park salınıb və vətəndaşların sərəncamına verilib. Eyni zamanda, idman şəhərciyi yaradılıb, müasir idman hovuzu, digər ictimai obyektlər tikilib.

Eyni zamanda, Böyükşor gölü də böyük təhlükə mənbəyi idi. Onilliklər ərzində Böyükşor gölünə axıdılan kanalizasiya, lay suları, neftlə çirklənmiş sular o bölgəni də ekoloji fəlakət zonasına çevirmişdi. Biz oranı da təmizlədik, Böyükşor gölünün bir hissəsi tam ekoloji standartlara cavab verir, köçəri quşlar oraya qonur. Göl üzərində yeni yol çəkilib və gölün ikinci hissəsinin təmizlənməsi istiqamətində işlər gedir. Olimpiya Stadionu vaxtilə bataqlıq kimi tanınan yerdə tikilibdir.

Ağacların əkilməsi şəhərin ekoloji vəziyyətini böyük dərəcədə yaxşılaşdırır. Milyonlarla ağac əkilmişdir. Bu gün Bakı yaşıl parklar, bağlar şəhəridir. Parkların sayına görə, hesab edirəm ki, Bakı dünya miqyasında ən qabaqcıl yerlərdədir. Bizim ən böyük parkımız olan bulvarın məsafəsi 3 kilometrdən 15 kilometrə uzadıldı. Mərkəzi park indi şəhərə yeni yaraşıq verir. Sovetski adlandırılan ərazidə 20 hektarda çox gözəl, abad park salınıbdır. Heydər Əliyev Mərkəzinin önündə, Konqres Mərkəzinin önündə, - vaxtilə Səttarxan zavodunun ərazisi olan bu yer də ekoloji təhlükə mənbəyi idi, - 20 hektar ərazidə park salınıb və vətəndaşlar böyük həvəslə bu imkanlardan istifadə edirlər. Vaxtilə havanı çirkləndirən lampa zavodu, şifer zavodu və digər müəssisələr köçürüldü, onların yerində nəqliyyat infrastrukturu yaradılmışdır. Bir sözlə, bu gün Bakı həm ekoloji, həm də rahatlıq baxımından çox sürətlə inkişaf edən şəhərdir.

Eyni zamanda, şəhərin təsərrüfatı yenilənir və bu məqsədlə mənim tərəfimdən müvafiq sərəncamlar verilmişdir, qərarlar qəbul edilmişdir. Mən sizə dəfələrlə bu məsələlərlə bağlı öz tövsiyələrimi vermişdim və bu il şəhər təsərrüfatının müasirləşdirilməsi istiqamətində işlər aparılıb. Həm dövlət investisiya proqramı çərçivəsində, eyni zamanda, Prezidentin Ehtiyat Fondunun vəsaiti hesabına lift təsərrüfatı yenilənir, nümunəvi həyətlər qurulur. Heydər Əliyev Fondu bu sahədə çox böyük iş aparır. Dam örtüklərinin təzələnməsi üçün Ehtiyat Fondundan 10 milyon manat vəsait ayrılmışdır.

Bu üç istiqamət üzrə hansı işlər görülüb? Şəhərin abadlaşdırılması və inkişafı ilə bağlı daha hansı işlər görülüb? Bu barədə məlumat verin.

**Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar ƏZİZOV:** Möhtərəm cənab Prezident, qeyd etmək istərdim ki, son vaxtlar qonaqlar və Bakı sakinləri görülən bu işləri həqiqətən yüksək qiymətləndirirlər. Birmənalı deyirlər ki, son on il ərzində Sizin səylərinizin nəticəsində Bakı keyfiyyətcə yeni bir səviyyəyə qalxıb. Bu, əhali və xarici qonaqlar tərəfindən qiymətləndirilir.

Bu gün Bakı Şəhər İcra Hakimiyyətinin və rayon icra hakimiyyətlərinin balansında 11 min yaşayış binası var. Onları şərti olaraq həyətləri olan və olmayanlara bölmək olar. Deməli, bu gün həyətləri olan binaların sayı 6331-dir. Sizin tapşırığınıza uyğun olaraq, 2018-2019-cu illərdə 273 nümunəvi məhəllə yaradılıbdır. Mən burada bir məsələyə də toxunmaq istərdim. İlk növbədə Leyla xanım Əliyevanın və onun təsisçisi olduğu IDEA İctimai Birliyinin fəaliyyətini qeyd etməyə dəyər. Möhtərəm cənab Prezident, ictimai birliyin səyləri nəticəsində bu gün Bakı şəhərində yeni bir format - məhəllələrarası parklar formatı tətbiq olunub və olunur. Bu ərazilərdəki onlarla binanın fasadları, dam örtükləri, blokları təmir olunub, su təchizatı sistemi yenilənib və bütün yaş kateqoriyaları üçün həm istirahət etmək, həm idmanla məşğul olmaq, həm də asudə vaxtı səmərəli keçirmək üçün şərait yaradılıbdır. Bu proses davam edir.

İlin axırınadək daha 15 yeni nümunəvi məhəllə istifadəyə veriləcəkdir. Bizim hesablamalarımıza görə, yaxın illərdə hələ 743 bu cür layihə icra etmək mümkündür. Bu proses davam edir. Bu gün biz bir daha Heydər Əliyev Fondunun rəhbərliyinə və ilk növbədə Leyla xanım Əliyevaya minnətdarlığımızı bildiririk.

**Prezident İlham ƏLİYEV:** Bu, çox vacib məsələdir. Çünki vətəndaşların gündəlik həyatda üzləşdikləri problemlərdir. Biz bilirik ki, bir çox binalarda, bloklarda vəziyyət ürəkaçan deyil, lift təsərrüfatı köhnəlib. Evlərarası həyətlər bəzi hallarda zəbt olunur və ictimai istifadə üçün yerlər yoxa çıxır. Ona görə nümunəvi həyətlərin qurulması çox böyük məna daşıyır. Biz bu sahəyə kompleks şəkildə yanaşmalıyıq. Əlbəttə ki, həyətlər ilk növbədə vətəndaşlar üçün rahat, işıqlı olmalıdır, təhlükəsizlik baxımından tədbirlər görülməlidir. Bir çox inkişaf etmiş ölkələrin şəhərlərində həyətlərdə təhlükəsizlik kameraları qoyulur. İndi Bakı şəhərində bir çox yerlərdə təhlükəsizlik kameraları qoyulub və bu kameralar cinayətlərin aşkar edilməsi və cinayətkarları məsuliyyətə cəlb etmək üçün böyük rol oynayır. Hesab edirəm, həyətlərdə də təhlükəsizlik kameraları qoyulmalıdır ki, təhlükəsizlik tədbirləri daha yüksək səviyyədə təmin olunsun.

Lift təsərrüfatı da həmçinin. Bir neçə il bundan əvvəl yenə də mənim sərəncamımla bir çox binaların lift təsərrüfatı yeniləndi. Ancaq təəssüflər olsun ki, istismar dövründə liftlər sıradan çıxır. Ona görə lift təsərrüfatı tam yenilənməlidir və onların istismarı ilə bağlı təkliflər verilməlidir. Ümumiyyətlə, biz indi nümunəvi həyətlər yaradırıq. Ancaq əgər bu həyətlər normal vəziyyətdə saxlanmazsa, əgər daim diqqət olmazsa, orada qurulan bütün işlər bir il, iki il, beş ildən sonra sıradan çıxacaq. Ona görə siz fikirləşin, təkliflər verin, necə edək ki, yaradılmış yeni infrastruktur, o cümlədən abadlıqla bağlı işlər daim nəzarətdə olsun və təmirə ehtiyacı olan obyektlər vaxtaşırı təmir edilsin.

**Prezident İlham ƏLİYEV:** İndi liftlərin quraşdırılması necə gedir?

**Eldar ƏZİZOV:** Möhtərəm cənab Prezident, Sizin sərəncamınızla Bakı şəhərinin lift təsərrüfatını inkişaf etdirmək üçün 32 milyon manat vəsait ayrılmışdır. Biz bu sahədə Almaniyanın tanınmış "Wittur" şirkəti ilə danışıqlar apardıq, müqavilə bağlandı və bugünədək 430 lift Bakıya gətirilib. Onlardan 130-u artıq istifadəyə verilib. Bu proses davam etdirilir. Həmin sərəncamda 542 liftin alınması nəzərdə tutulmuşdu. Biz büdcə vəsaitindən səmərəli istifadə etmək barədə Sizin tövsiyələrinizə və tapşırıqlarınıza əsasən şirkətlə danışıqlar apardıq və beləliklə, burada vəsaitə qənaət yarandı. Biz bu qənaət hesabına ilin axırınadək əlavə 39 lift almaq niyyətindəyik, danışıqlar gedir.

**Prezident İlham ƏLİYEV:** Bütövlükdə nə qədər yeni lift quraşdırılmalıdır?

**Eldar ƏZİZOV:** İlin axırınadək 581 lift quraşdırılacaqdır. Amma yaxın illər üçün proqnozlarımız belədir ki, 2500-ə qədər lift mərhələ-mərhələ dəyişdirilməlidir.

**Prezident İlham ƏLİYEV:** Onları da biz dəyişdirməliyik. İndi Dövlət İnvestisiya Proqramına baxılır, ona görə siz təkliflərinizi verin ki, Bakı şəhərinin lift təsərrüfatı tam yenilənsin və bütün liftlər həm təhlükəsizlik normalarına cavab versin və işlək vəziyyətdə olsun.

**Eldar ƏZİZOV:** Sizə məlumat verim ki, ilkin olaraq quraşdırılacaq 581 liftə Almaniya şirkəti tərəfindən xidmət göstərilməsi üçün Vahid Elektron İdarəetmə Mərkəzi yaradılır. Lift təsərrüfatında yaranan bütün problemlər dərhal həmin mərkəzə daxil olacaqdır və tədbir görüləcəkdir.

**Prezident İlham ƏLİYEV:** Dam örtükləri ilə bağlı vəziyyət necədir? Çünki qış yaxınlaşır. Bu məqsədlər üçün də ilkin olaraq Prezidentin Ehtiyat Fondundan 10 milyon manat vəsait ayrılıb. Əlbəttə ki, bütün dam örtüklərini bu vəsaitlə təmir etmək mümkün deyil. Ancaq mən sizə göstəriş vermişdim ki, bu işləri planlı şəkildə görməliyik, illərə bölməliyik və maksimum qısa müddət ərzində Bakı şəhərinin bütün binalarının dam örtükləri tamamilə standartlara cavab versin. Hansı işlər görülüb və nə planlaşdırılır?

**Eldar ƏZİZOV:** Sizin sərəncamınıza uyğun olaraq bu proses artıq Bakı şəhərində fəal surətdə həyata keçirilir. Şəhərdə 380 binanın dam örtüyünü təmir etmək nəzərdə tutulubdur. Biz inşaat materiallarını mərkəzləşdirilmiş qaydada alandan sonra danışıqlar apardıq və burada da qənaət yaranıbdır. Biz artıq 380 deyil, 420 binanın dam örtüyünü təmir edə biləcəyik. Şirkətlərlə danışıqlar aparılıb, Sizin tələbiniz çatdırılıb ki, ən keyfiyyətli materiallardan istifadə etmək vacibdir. Biz öz tərəfimizdən sakinlərin istək və arzularını nəzərə alaraq işin nəticələrini onların iştirakı ilə qəbul edəcəyik. Bu gün, demək olar ki, artıq 150 damda işlər tamamlanıb və proses gedir. Noyabrın ortalarına qədər bütün bu işi qurtarmaq niyyətindəyik.

**Prezident İlham ƏLİYEV:** Çox yaxşı, bütün bu işləri görmək lazımdır, çünki buna ehtiyac var. Biz elə etməliyik ki, Bakı şəhərinin hər bir yeri abad olsun və vətəndaşları narahat edən problemlər aradan qaldırılsın, o cümlədən tikintilərlə bağlı məsələlər. Mən bu barədə də müvafiq göstərişlər vermişəm. Bəzi hallarda tikinti üçün yerlər zəbt olunur, bəzi hallarda sərəncamlar qanunsuz olaraq verilir, ağaclar qırılır. Vətəndaşlar sağ olsunlar ki, bir çox hallarda belə vəziyyətlə üzləşdikdə müvafiq orqanlara məlumat verirlər. Yəni bu, ictimai nəzarətin mövcudluğu deməkdir. Bundan sonra Bakıda şəhərsalma qaydaları tam təmin edilməlidir. Bütün şəhərlərdə bina tikintisi üçün müvafiq əmsallar mövcuddur. Əfsuslar olsun ki, əvvəlki dövrlərdə bu əmsallar 10 dəfə, bəlkə də artıq götürülürdü. Yəni bütün şəhərsalma qaydaları pozulurdu. Mövcud binaların düz önündə yeni hündürmərtəbəli binalar tikilirdi və bəzi dırnaqarası sahibkarlar köhnə binalarda yaşayan vətəndaşları günəş işığından məhrum edirdilər. Bir çox hallarda həyətlərdə evlərin tikintisi baş verirdi. Əvvəlki dövrdə hətta bəzi məktəblərin həyətlərində evlər tikilirdi. Sonra bu məsələyə son qoyuldu. Yəni şəhərsalma qaydaları tətbiq olunmalıdır, burada yerli icra orqanları və əlbəttə, Dövlət Arxitektura və Şəhərsalma Komitəsi öz işini yüksək səviyyədə qurmalıdır ki, bütün şəhərsalma normaları təmin edilsin. Əlbəttə ki, rayon icra hakimiyyətləri tərəfindən vətəndaşlara diqqət yüksək səviyyədə olmalıdır. Bəzi hallarda vətəndaşlar incidilir, onların problemlərinə reaksiya verilmir. Bəzi hallarda vətəndaşlardan qanunsuz olaraq müəyyən vəsait tələb edilir, rüşvətxorluq halları baş verir. Belə siqnallar bizə çatır və rayon icra hakimiyyətləri nəticə çıxarmalıdırlar. Xoşagəlməz hallara yol verilməməlidir, vətəndaşlara maksimum diqqət göstərilməlidir, rayon icra hakimiyyətlərinin nümayəndələri kabinetdə oturub kağızlara baxmaq yox, bütün rayonlarda vətəndaşlarla görüşməlidirlər. Mənim göstərişimlə son vaxtlar bu proses bir qədər geniş vüsət alıb, amma lazımi səviyyədə deyil. Mənə verilən məlumata görə, bəzi hallarda formal xarakter daşıyır, bəzi hallarda vətəndaşları narahat edən problemlərə reaksiya verilmir. Ona görə biz çox diqqətli olmalıyıq. Əgər vətəndaşı nəsə narahat edirsə, buna reaksiya verilməlidir. Əlbəttə, bütün məsələlərə obyektiv şəkildə baxılmalıdır. Bəzi hallarda elə məsələlər qaldırılır ki, bunun heç bir əsası yoxdur, yaxud da sırf şəxsi xarakter daşıyır. Ancaq bir çox hallarda vətəndaşlar haqlı olaraq öz təkliflərini verirlər, onları narahat edən problemləri qaldırırlar. Həm Bakı Şəhər İcra Hakimiyyəti və bütün rayon icra hakimiyyətləri vətəndaşlara böyük diqqətlə yanaşmalıdırlar. Beləliklə, Bakı şəhəri və Azərbaycanın bütün şəhərləri planlı şəkildə inkişaf etməlidir.

Bakı şəhərinin nadir, özünəməxsus, tarixi memarlıq siması var. Bu, bizim böyük sərvətimizdir və hər bir tarixi binaya böyük diqqətlə yanaşılır. O binaların təmiri gərək elə aparılsın ki, onların tarixi görkəmi pozulmasın. Bəzi hallarda tarixi binaları sökürlər, onların yerində eybəcər hündürmərtəbəli binalar tikirlər. Buna yol vermək olmaz. Bakının memarlığı bizim milli sərvətimizdir. İçəri şəhər UNESKO tərəfindən qorunur. Deyə bilərəm ki, dünyada o qədər də çox şəhərlər belə qədim İçəri şəhər kimi şəhərlərlə öyünə bilməz, bu, bizim böyük sərvətimizdir. Eyni zamanda şəhərin hər bir yeri abad olmalıdır. Bəzi yerlərdə, ümumiyyətlə, küçə işıqları yoxdur, qəsəbələrdə, bir çox yerlərdə torpaq yollar var. Mən artıq bu barədə Azəravtoyol Agentliyinə ciddi tapşırıq vermişəm, siz də nəzarət edin. Yəni şəhərin hər bir yeri bizim üçün əzizdir. Bakı şəhəri təkcə mərkəzdən ibarət deyil. Biz şəhərin infrastrukturunu, ilk növbədə, vətəndaşlar, ondan sonra turistlər, xarici qonaqlar üçün yaradırıq. Onlar da, əlbəttə ki, özlərini Bakıda rahat hiss etməlidirlər. Ancaq biz ilk növbədə şəhər sakinlərinin problemlərini həll etməliyik. Ona görə siz rayon icra hakimiyyətlərinin başçılarını yığın və həm abadlıqla, həm də təsərrüfat işləri ilə bağlı müşavirə keçirin. İlk növbədə xoşagəlməz hallara son qoyulmalıdır. Süründürməçilik, rüşvətxorluq, vətəndaşlara biganə münasibət - bunlara son qoyulmalıdır. Əgər kim bu sahədə öz işinə düzəliş etməsə, biz o adamlarla vidalaşacağıq və bu, onlar üçün hələ ən yüngül cəza olacaqdır. Biz şəhərimizi inkişaf etdirməliyik. Bir daha demək istəyirəm ki, Bakı şəhəri dünyanın ən gözəl şəhərlərindən biridir və gələcəkdə də şəhərin inkişafı ilə bağlı əlavə addımlar atılacaqdır.

## Tovuz rayonunda "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisinin başa çatdırılması ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Tovuz rayonunda "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisinin başa çatdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.25.1-ci yarımbəndində göstərilmiş məbləğin 19 255 000 (on doqquz milyon iki yüz əlli beş min) manatı Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 noyabr 2019-cu il*

## *Gülşat MƏMMƏDOVA:* "Türkmənistan Azərbaycanla siyasi, iqtisadi, mədəni sahələrdə əlaqələri genişləndirmək niyyətindədir"



Noyabrın 4-də Milli Məclisin Sədri Oqtay Əsədov Türkmənistan Məclisinin Sədri xanım Gülşat Məmmədovanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Oqtay Əsədov bu səfərin ölkələrimiz arasında münasibətlərin, o cümlədən parlamentlərarası əlaqələrin daha da dərinləşməsinə mühüm töhfə verəcəyinə ümidvar olduğunu bildirdi. Qeyd edildi ki, oxşar mədəniyyəti, adət-ənənələri bölüşən xalqlarımızın dostluğunun qədim tarixi kökləri var. Dövlət başçılarının qarşılıqlı səfərləri zamanı aparılan danışıqların əlaqələrimizin inkişafında mühüm rolu var. Bugünədək ölkələrimiz arasında 90 sənəd imzalanıb. Yüksək səviyyəli siyasi münasibətlər iqtisadi sahəyə də müsbət təsirini göstərir. 2018-ci ildə Azərbaycanla Türkmənistan arasında ticarət dövriyyəsi 133 milyon dollar həcmində olub. Cari ilin 9 ayı ərzində isə bu rəqəm 163 milyona çatıb.

Vurğulandı ki, bu gün Azərbaycan qlobal miqyaslı neft və qaz layihələrinin reallaşmasında, müasir nəqliyyat infrastrukturunun yaradılmasında fəal iştirak edir. Bu sahələrdə əməkdaşlığımız üçün geniş imkanlar var. Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının fəaliyyəti, Azərbaycanın iştirakı ilə Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizlərinin reallaşması istiqamətində görülən işlər fikrimizin sübutudur.

Spiker qeyd etdi ki, parlamentlər səviyyəsində əlaqələrimizin dərinləşməsi dövlətlərarası münasibətlərə də öz təsirini göstərir. Hər iki ölkənin qanunvericilik orqanlarında dostluq qruplarının fəaliyyət göstərməsini təqdir edirik. Deputatlarımızın beynəlxalq təşkilatlar çərçivəsində mütəmadi görüşlərini müsbət dəyərləndiririk.

Xanım Gülşat Məmmədova ölkəmizə səfərinin və burada keçirilən görüşlərin ümumi məqsədlərə xidmət edəcəyinə inamını ifadə etdi. Qonaq səfər çərçivəsində gördüklərindən və Milli Məclisdə olmasından məmnunluğunu bildirdi. Qeyd etdi ki, Türkmənistan Azərbaycanla siyasi, iqtisadi, mədəni sahələrdə əlaqələri genişləndirmək niyyətindədir. Deputatların qarşılıqlı səfərləri təcrübə və informasiya mübadiləsi baxımından önəmlidir.

Görüşdə Milli Məclis Sədrinin müavinləri Bahar Muradova, Valeh Ələsgərov, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, Türkmənistanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Dilarə Cəbrayılova, hər iki ölkənin səfirləri Həsən Zeynalov, Məkan İşanquliyev və digər rəsmi şəxslər iştirak ediblər.

***AZƏRTAC***
***Foto Fərman BAĞIROVUNDUR***

## Azərbaycanda hər bir seçkini yüksək səviyyədə keçirməklə demokratik dəyərlərə sadiq olduğumuzu bir daha göstəririk




*Əvvəli 1-ci səh.*

Seminarda çıxış edən Mərkəzi Seçki Komissiyası sədrinin müavini Rövzət Qasımov bildirib ki, dünyanın heç bir yerində ideal seçki mümkün deyil, çünki seçkilərdə milyonlarla insan iştirak edir. Qarşımıza qoyulan məqsəd mükəmməlliyin model olaraq hədəf seçilməsidir. Demokratiya ilə bağlı bu gün bizə qoyulan tələb yüzillərlə demokratiya və seçki təcrübəsinin olduğu ölkələrlə eynidir. Rövzət Qasımov qeyd edib ki, MSK özünün təsdiq etdiyi tədbirlər planına uyğun olaraq bir sıra məqsədyönlü layihələr gerçəkləşdirib. Seçkilərlə bağlı müraciətlərə baxılmasına dair Gəncədə, Şəkidə, Masallıda tədbirlər keçirilib, Bakıdakı seminar layihənin yekun tədbiridir. Tədbirlərdə vətəndaşların müraciətlərinə baxılması ilə bağlı dairə seçki komissiyalarında fəaliyyət göstərən ekspert qruplarının üzvləri üçün ətraflı şəkildə təqdimatlar olunub. MSK-nın sədr müavini qeyd edib ki, seçki prosesində ən mühüm məsələlərdən biri vətəndaşların müraciət və şikayətlərinə baxılmasıdır.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsi yanında Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsi Çingiz Əsgərov deyib ki, bu tədbir ölkəmizdə seçki təcrübəsinin daha da yaxşılaşmasına xidmət edir. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının icrasına nəzarəti həyata keçirən Avropa Şurası Nazirlər Komitəsinin iclaslarında dövlətlər tərəfindən öhdəliklərin yerinə yetirilməsi məsələləri mütəmadi qaydada müzakirə edilir, qərarlar qəbul edilir. Avropa Məhkəməsinin Azərbaycanla bağlı, o cümlədən seçki hüquqlarının qorunmasına dair qərarlarının icrası məsələləri də Nazirlər Komitəsi tərəfindən müzakirə edilir. Belə müzakirələr zamanı ölkədə keçirilən bütün seçkilərlə bağlı məlumatlar, hesabatlar və qərarlar nəzərə alınır. Ona görə də Azərbaycanda hər bir seçkini yüksək səviyyədə keçirməklə beynəlxalq ictimaiyyətə insan hüquq və azadlıqlarına, demokratik dəyərlərə sadiq olduğumuzu göstərməliyik.

Sonra Mərkəzi Seçki Komissiyasının və komissiya nəzdində ekspert qrupunun üzvləri Bəxşeyiş Əsgərovun və Ramiz İbrahimovun vətəndaşların seçki hüquqlarının pozulması ilə əlaqədar müraciətlərə baxılmasına dair müxtəlif mövzularda məruzələri dinlənilib və təqdimatlar keçirilib.

Seminarın praktiki hissəsində mövzular ətrafında müzakirələr aparılıb, kazuslar üzrə müxtəlif şikayət nümunələri nəzərdən keçirilərək əhatə olunan məsələlər əyani şəkildə hərtərəfli izah edilib.

Xatırladaq ki, seçkilərlə bağlı müraciətlərə baxılmasına həsr olunan regional seminarlar Mərkəzi Seçki Komissiyasının təşkilatçılığı ilə oktyabrın 29-da Gəncədə, 31-də Şəkidə və noyabrın 2-də Masallı şəhərində də keçirilib.

# Radio və televiziya işçilərinin peşə bayramı qeyd edilib

Son vaxtlar efir məkanında bir-birindən maraqlı layihələri, verilişləri ilə tamaşaçıların diqqətini cəlb edən, istedadlı jurnalist Rövşən Məmmədovun sədrlik etdiyi "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti radio və televiziya işçilərinin peşə bayramı günü münasibətilə noyabrın 4-də Akademik Opera və Balet Teatrında tədbir təşkil edib.

AZƏRTAC xəbər verir ki, tədbirdə dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, mədəniyyət və incəsənət xadimləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov radio və televiziya günü münasibətilə teleradio işçilərini təbrik edib. Prezidentin köməkçisi teleradio fəaliyyətinin Azərbaycan mədəniyyətinin güzgüsü olduğunu bildirib. Qeyd edib ki, teleradio fəaliyyəti Azərbaycan mədəniyyətinin və incəsənətinin formalaşmasında mühüm rol oynayıb. Teleradio, eyni zamanda, Azərbaycanın siyasi salnaməsini yaradır və onun ən yaxşı nümunələrini dünyada tanıdır.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin teleradio fəaliyyətinə böyük önəm verdiyini vurğulayan Əli Həsənov deyib ki, Azərbaycanda teleradio fəaliyyəti mühüm inkişaf yolu keçib, xüsusilə də müstəqillik illərində bu sahə xeyli inkişaf edib. Teleradio fəaliyyəti ilə məşğul olan insanlar Azərbaycan dövlətinin milli, tarixi, mədəni salnaməsini yaradırlar. Ümummilli Lider Heydər Əliyevin 1998-ci ildə Azərbaycanda mətbuat üzərindən








senzuranı götürməsi teleradio fəaliyyətinin inkişafına da mühüm təsir göstərdi. Bu gün Azərbaycanda kifayət qədər müstəqil teleradio kampaniyaları fəaliyyət göstərir. Bu teleradio kampaniyaları müasir texnologiyalar və avadanlıqlarla təmin olunub və dünyanın qabaqcıl teleradio kampaniyaları ilə rəqabət aparmaq qabiliyyətindədir. Teleradio kampaniyaları bu gün Azərbaycanı, ölkəmizin mədəniyyətini həm regionda, həm də dünyada layiqincə təbliğ edir.

Milli Televiziya və Radio Şurasının (MTRŞ) sədri Nuşirəvan Məhərrəmov deyib ki, Azərbaycanda teleradio fəaliyyəti ən mühüm fəaliyyət sahələrindən birinə çevrilib. Azərbaycanda radionun yaranmasından 93, televiziyanın yaranmasından isə 63 il keçir. Sovet dövründə məhdudiyyətlərə baxmayaraq, o zaman Azərbaycanın görkəmli mədəniyyət və incəsənət xadimləri teleradio sahəsində gözəl bədii mühit yaratmağı bacarmışdılar. Müstəqillik illərində Azərbaycanda özəl televiziya kanalları yarandı və teleradio sahəsinə bir zənginlik gəldi. Bu sahədə çalışan insanlar da çoxaldı. Kabel, internet, peyk, mobil yayım növləri fəaliyyətə başladı. Eyni zamanda, Azərbaycanda ixtisaslaşmış telekanallar meydana gəldi. Mədəniyyət, idman, xəbər kanalları yarandı və bu, teleradio sahəsində çox ciddi bir uğurdur. Bir sözlə, bu gün Azərbaycanın teleradio palitrası olduqca zəngindir. Ümummilli Lider Heydər Əliyevin teleradio sahəsinə göstərdiyi diqqət və qayğı bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Tədbir bədii hissə ilə davam edib.

*Qətərin Baş Nazirinin müavini:*

# "Azərbaycanla hərtərəfli əməkdaşlıqda maraqlıyıq"

İslam Əməkdaşlıq Təşkilatının Somali üzrə Əlaqə Qrupunun Dohada keçirilən nazirlər iclası çərçivəsində Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov Qətər Dövlətinin Baş Nazirinin müavini və Xarici İşlər naziri Şeyx Mohammed bin Abdulrahman Al-Tani ilə görüşüb.

XİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə ölkələrimizin əməkdaşlıq gündəliyinə daxil olan bir sıra məsələlər, o cümlədən ticarət və sərmayə sahəsində birgə səylərin artırılması yolları müzakirə olunub.

Nazir Elmar Məmmədyarov həmkarına Azərbaycanın təşəbbüsü və iştirakı ilə bölgədə həyata keçirilən nəqliyyat və kommunikasiya layihələri barədə məlumat verib. Həmçinin Qətər Dövlətinin bu imkanlardan faydalanması məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Şeyx Mohammed bin Abdulrahman Al-Tani ölkəsinin Azərbaycan ilə hərtərəfli əməkdaşlıqda maraqlı olduğunu qeyd edib.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran regional məsələləri müzakirə ediblər.

# Təhsil naziri Sabirabadda vətəndaşları qəbul edib

Noyabrın 4-də Təhsil naziri Ceyhun Bayramov Sabirabad şəhərindəki Heydər Əliyev Mərkəzində Sabirabad və Saatlı rayon sakinlərini qəbul edib.

Təhsil Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq keçirilən qəbulda qeyd olunan rayonlarda müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.

C.Bayramov vətəndaşların müraciət və təkliflərini diqqətlə dinləyib. O, hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə konkret tapşırıqlar verib.

Qəbulda vətəndaşlar əsasən müəllimlərin yerdəyişməsi, işlə təminolunma, məktəb binalarının təmiri, işə bərpaolunma, dərs saatlarının bölgüsü və digər məsələlərlə bağlı müraciətlər ediblər.

# Azərbaycanla Özbəkistan arasında mədəni əlaqələrin inkişafı məsələləri müzakirə edilib

Azərbaycanla Özbəkistan arasında mədəni əlaqələrin inkişafı məsələləri müzakirə edilib. AZƏRTAC xəbər verir ki, müzakirələr Azərbaycan nümayəndə heyətinin Özbəkistan Mədəniyyət nazirinin müavini Azadbek Nazarbekov ilə görüşündə aparılıb.



A.Nazarbekov Özbəkistanla Azərbaycan arasında bütün sahələrdə əməkdaşlığın yüksək səviyyədə olduğunu bildirib. Nazir müavini deyib ki, həm Özbəkistan, həm də Azərbaycan mədəniyyət sahəsində əlaqələrin daha da inkişafına önəm verir. O, Özbəkistanın Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının tamhüquqlu üzvü olmasını sevinclə qarşıladığını qeyd edib, Türk Şurasının bu yaxınlarda Bakıda keçirilən iclasında Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin iştirakını məmnunluqla xatırlayıb.

Tərəflər Azərbaycan-Özbəkistan arasında mədəni əlaqələrin inkişafı haqqında danışaraq bu istiqamətdə həyata keçirilən layihələr, gələcək əməkdaşlıq məsələlərini müzakirə ediblər.

Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov birgə layihələrin həyata keçirilməsi, mədəniyyət və ədəbiyyat günlərinin təşkili, mədəniyyət müəssisələri arasında əlaqələrin yaradılması sahəsində öz təkliflərini bildirib. Mərkəzin layihəsi ilə Özbəkistanın çoxsaylı şəhərlərində Azərbaycan mədəniyyəti və ədəbiyyatı günlərinin keçirildiyini və növbəti layihə ilə Xarəzm vilayətində belə yüksəksəviyyəli tədbirlərin təşkil ediləcəyini söyləyib.

Görüşdə "Kaspi" qəzetinin təsisçisi, filologiya üzrə fəlsəfə doktoru, yazıçı-publisist Sona Vəliyeva Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurlu mədəniyyət siyasətinin aparıldığını qeyd edib, dövlətimizin dünyada mədəniyyətlərarası dialoqa mühüm töhfələr verdiyini vurğulayıb. O deyib ki, Azərbaycan Özbəkistanla əməkdaşlığın inkişafına xüsusi dəyər verir və bu istiqamətdə fəaliyyətimiz davam edəcək. Azadbek Nazarbekov xalqlarımızın ortaq dəyərləri və mədəni əlaqələr sahəsində Mədəniyyət Mərkəzinin fəaliyyətini diqqətə çatdırıb. O, muğam, aşıq sənəti, sənətkarlıq sahəsində Özbəkistanın keçirdiyi beynəlxalq festivalların yüksək səviyyədə təşkil edildiyini və bu işdə Azərbaycanın aktiv iştirakını yüksək qiymətləndirib.

Görüş növbəti ildə Azərbaycanda Özbəkistan mədəniyyət günlərinin keçirilməsi, bu istiqamətdə əməkdaşlığa dair müzakirələrlə davam edib. Görüşdə iştirak edən Əməkdar artist Ehtiram Hüseynov Azərbaycan muğamından bir parça səsləndirib.

# Azərbaycan 90-dan çox ölkəyə humanitar və texniki yardımlar göstərib

## Dövlət başçısı Qoşulmama Hərəkatının Zirvə Görüşündə də buna diqqət çəkdi

Əvvəli 1-ci səh.

*Təəssüf ki, həmin qətnamələr həyata keçirilməmişdir. Bəzən Təhlükəsizlik Şurasının qətnamələri bir neçə günün içində icra edilir. Bəzən isə Azərbaycanın üzləşdiyi münaqişəyə münasibətdə olduğu kimi, 26 ildir ki, kağız üzərində qalır. Bu ikili standartlar siyasətinə son qoyulmalıdır. İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Avropa Parlamenti, Avropa Şurasının Parlament Assambleyası, ATƏT və digər nüfuzlu təşkilatlar Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasını tələb edən qətnamə və qərarlar qəbul etmişlər. Fürsətdən istifadə edərək Qoşulmama Hərəkatının indiyə qədər qəbul olunmuş sənədlərində münaqişənin BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə dəstək ifadə etdiklərinə görə üzv dövlətlərə təşəkkürümü bildirirəm".*

Dövlət başçısı qeyd etdi ki, Ermənistan məqsədli surətdə işğal olunmuş ərazilərdə Azərbaycan izini itirməyə çalışır. Bütün toponimlər erməniləşdirilir, tarixi abidələr, məscidlər, məzarlıqlar dağıdılmış, muzeylər və maddi-mənəvi sərvətlərimiz talan edilmişdir: *"Ermənistan həmçinin işğal olunmuş ərazilərdə beynəlxalq humanitar hüquqa zidd olaraq qeyri-qanuni məskunlaşdırma siyasəti aparır və qanunsuz iqtisadi fəaliyyətlə məşğul olur. 2016-cı ilin aprel ayında Ermənistanın törətdiyi hərbi təxribat nəticəsində aralarında bir uşaq olmaqla, altı azərbaycanlı mülki şəxs həlak olmuş, 26-sı yaralanmışdır, yüzlərlə ev dağıdılmışdır. Qarabağ əzəli Azərbaycan torpağıdır və münaqişə yalnız Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır".*

Dünyada baş vermiş təbiət hadisələri, süni problemlər: məhəlli və beynəlxalq münaqişələr, müharibələr, terror və s. nəticəsində zərər çəkmiş insanların üzləşdiyi hallar humanitar yardımlara ciddi ehtiyacın yarandığını üzə çıxarıb. Məhz buna görə 19 Avqust BMT Baş Məclisinin qərarı ilə Dünya Humanitar Yardım Günü kimi qeyd olunur.

2018-ci ilin mayında BMT Təhlükəsizlik Şurası silahlı münaqişə zonalarında aclığın aradan qaldırılmasına dair qətnamə də qəbul edib. Şuranın üzvləri aclıq amilindən müharibə silahı kimi istifadə edilməsini pisləyiblər. Onlar bütün silahlı münaqişə tərəflərini beynəlxalq humanitar hüquq prinsiplərinə əməl etməyə, beynəlxalq donor təşkilatların ərzaq yardımlarına mane olmamağa, insanları tibbi xidmətdən məhrum etməməyə çağırıblar.

Ötən əsrin doxsanıncı illərinin əvvəlindən Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti nəticəsində yüz minlərlə qaçqın və məcburi köçkünün üzləşdiyi problemləri aradan qaldırmaq üçün ölkəmizdə də humanitar yardımlara ciddi ehtiyac duyulmaya bilməzdi. Bu fəlakət dövlət müstəqilliyinin yenicə bərpa olunduğu illərə təsadüf edirdi. Lakin dövlətimizin hərtərəfli inkişafı nəticəsində Azərbaycan özü bu gün humanitar yardımlar edən donor ölkəyə çevrilib. Son illər Pakistan, Yaponiya, Somali və başqa ölkələrə birbaşa humanitar yardımlar göstərən Azərbaycanın atdığı addımlar beynəlxalq təşkilatlar tərəfindən böyük xeyirxahlıq kimi dəyərləndirilir. Bütövlükdə Azərbaycan 90-dan çox ölkəyə humanitar və texniki yardımlar göstərib.

Məcburi köçkünlərin təxirəsalınmaz humanitar yardım ehtiyaclarının ödənilməsində, onların yaşayış şəraitinin yaxşılaşdırılmasında Azərbaycan hökumətinin fəallığı Avropa üçün nümunədir.

Hazırda dünyada 130 milyondan artıq insanın həyatı humanitar yardımlardan asılıdır. Humanitar yardım tələbatları İkinci Dünya müharibəsindən sonra rekord həddə çatıb. Birləşmiş Millətlər Təşkilatının, Beynəlxalq Qırmızı Xaç Komitəsinin və qeyri-hökumət təşkilatlarının hesabatlarında humanitar yardım işçilərinə edilən hücumların, onların öldürülməsi və oğurlanması hallarının sayındakı artım göstərir ki, bunun qarşısının alınmaması daha ağır fəlakətlərə gətirib çıxara bilər.

550 milyonluq əhalisi olan Avropa ölkələrinin 800 min nəfər qaçqının problemi qarşısında aciz qaldığı çox da uzaq tarix deyil. Lakin Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu siyasəti nəticəsində dövlətimiz neçə onillikdir ki, bir milyondan çox qaçqın və məcburi köçkünün problemlərinin öhdəsindən gəlir. Azərbaycana səfər edən nüfuzlu beynəlxalq təşkilatların rəhbərləri dövlət başçısının məqsədyönlü fəaliyyəti nəticəsində ölkəmizin bu sahədə əldə etdiyi nailiyyətlərin bütün dünyaya nümunə olduğunu bildirirlər.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# İslahatlara yeni impuls verilir

## Prezident İlham Əliyev dövlət idarəçiliyi sistemini daim təkmilləşdirir və daha çevik idarəetmə formasının yaradılması istiqamətində ciddi addımlar atır

Əvvəli 1-ci səh.

Oktyabrın 31-də Yevlax və Xaçmaz rayonlarına təyin olunan yeni icra hakimiyyəti başçılarına tapşırıqlar verərkən Prezident digər məmurlara da çatdırdı ki, daim vətəndaşlarla ünsiyyət əsnasında rayonun problemlərini və vətəndaşları narahat edən məsələləri daha dərindən öyrənib adekvat tədbirlər görməlidirlər: "Əgər eşitsəm, bilsəm ki, əyri yola gedirsiniz, onda siz çox ciddi cəzalandırılacaqsınız. Bunu bəri başdan bilin və bütün başqa yerli icra orqanlarının nümayəndələri, rəhbərləri məni yaxşı eşitsinlər. Korrupsiyaya, rüşvətxorluğa qarşı Azərbaycanda amansız mübarizə aparılmalıdır. Bu yara bizim inkişafımızı ləngidir və gələcəyə olan planlarımızı sarsıda bilər. Düzdür, bu bəla hər bir ölkədə var. Amma əsas məsələ ondadır ki, rəhbərlik bu məsələyə necə münasibət göstərir. Azərbaycanda şəffaflıq, dürüstlük hər bir dövlət məmuru üçün həyat tərzi olmalıdır. Ona görə bu məsələ ilə bağlı aidiyyəti dövlət qurumları ilə birlikdə çox ciddi fəaliyyət göstərməlisiniz, tamamilə şəffaf vəziyyət yaradılmalıdır".

Göründüyü kimi, cənab İlham Əliyev ölkəni yeni mərhələyə - daha müasir ölkə, daha çevik idarəetmə, daha gənc kadrların öhdəsində olan dövlət modelinə keçirir. Onu da vurğulamalıyıq ki, dövlət idarəçiliyində gənclərin irəli çəkilməsi ənənəsi hər zaman mövcud olub. Gənclərin indiki mərhələdə rəhbər vəzifələrə irəli çəkilməsində uzun illər baza formalaşdırılıb, uğurlu siyasət həyata keçirilib.

Noyabrın 1-də dövlət başçısının sərəncamı ilə Samir Nuriyevin Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri təyin edilməsi də bir daha təsdiq etdi ki, cənab İlham Əliyev gənc nəslə şans verir, onlar üçün fəaliyyət meydanı yaradır.

Prezident çağırışların tələbinə uyğun olaraq yeni baxışlı, yeni dünyagörüşlü yanaşmaları özündə təcəssüm etdirən və əvvəlki işində bunu göstərən şəxsləri vəzifəyə təyin edir. Bu proseslər həqiqətən də cənab İlham Əliyevin siyasi əzmkarlığına dəlalət edir. Bütün bunlar isə deməyə əsas verir ki, islahatçı Prezidentin verdiyi qərarlar Azərbaycanın hərtərəfli inkişafına mühüm töhfə verəcək. İslahatlara şahidlik edən ölkə ictimaiyyəti də dövlət idarəetmə sistemində həyata keçirilən prosesləri, xüsusən də gənc kadrlara rəhbər korpusda yüksək etimadın göstərilməsini təqdirəlayiq hal kimi qiymətləndirir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Bakı Ali Neft Məktəbinin tələbəsi Ramil Şükürov Beynəlxalq Astronavtika Konqresində iştirak edib

ABŞ-ın paytaxtı Vaşinqton şəhərində Beynəlxalq Astronavtika Federasiyasının Baş Assambleyasında keçirilmiş seçkilər zamanı Bakı şəhəri 2022-ci ildə keçiriləcək Beynəlxalq Astronavtika Konqresinə evsahibliyi etmək hüququnu qazanıb.




Bu mötəbər tədbirə evsahibliyi etməyə namizəd olan şəhərlər arasında Sinqapur, Rio-de-Janeyro və Nyu Dehli şəhərləri də olub.

68 ölkəni təmsil edən 398 təşkilatın üzv olduğu federasiya kosmik sahədə fəaliyyət göstərən ən mötəbər beynəlxalq təşkilatdır. 1950-ci ildən bəri fərqli ölkələrdə keçirilən Beynəlxalq Astronavtika Konqresi təşkilatın əsas tədbiridir. Konqres zamanı iştirakçılar kosmos sahəsinə aid aktual trendləri və ən son innovasiyaları izləmək fürsəti əldə edir.

Azərbaycan builki Beynəlxalq Astronavtika Konqresində geniş tərkibli nümayəndə heyəti ilə təmsil olunub. Nümayəndə heyətinin tərkibində Bakı Ali Neft Məktəbinin proseslərin avtomatlaşdırılması mühəndisliyi ixtisasının magistrantı Ramil Şükürov da təmsil olunub. Mötəbər beynəlxalq tədbir barədə fikirlərini bölüşən Ramil Şükürov bildirib ki, bu konqresin iştirakçısı olduğu üçün çox sevinir: "70-ci illərdə Beynəlxalq Astronavtika Konqresinin Vaşinqton şəhərində keçirilməsi, əslində, heç də təsadüfi hal deyildi. Bu konqres Aya enişin 50-ci ildönümünə həsr olunduğu üçün məhz ABŞ-ın paytaxt şəhərində keçirildi. Tarixə bir qədər nəzər salsaq, görərik ki, konqres düz 46 il bundan əvvəl - 1973-cü il oktyabr ayında keçmiş Sovet İttifaqında yalnız bir dəfə məhz Bakı şəhərində keçirilib. Bu da, öz növbəsində, Azərbaycan dövlətinin kosmonavtika tarixinin təməlini qoyub. Nəticə etibarilə növbəti ildə təbii ehtiyatların tədqiqi üzrə kosmik texnologiyaların köməyi ilə elmi mərkəz yaradılıb və kosmik tədqiqatların aparılmasına start verilib. Həmin illərdə tədbirdə dünyanın 17 ölkəsindən 1500-dən çox nümayəndə heyəti iştirak edib. Hazırda isə bu konqres kosmos ictimaiyyətinin 6000-dən çox nümayəndə heyətini bir araya toplamağa nail olub. Bu il Bakı şəhəri hər il keçirilən beynəlxalq konqresə evsahibliyi etmək üçün öz namizədliyini irəli sürüb. Bakı şəhərinin 2022-ci ildə keçiriləcək Beynəlxalq Astronavtika Konqresinə evsahibliyi etmək hüququ qazanmasında Cənubi Qafqazda ilk peyk operatoru olan "Azərkosmos"un böyük əməyi var. Bu konqres Azərbaycanın turizm sektoruna öz müsbət təsirini göstərməklə yanaşı, ölkəmizin adət-ənənələrini, tarixini və həqiqətlərini dünyaya bir daha nümayiş etdirməyə imkan yaradacaq. Müsbət təsirlərə turizm sektoru ilə birlikdə kosmik sahənin sürətli inkişafı və bu sahədə əlaqələrin genişləndirilməsi faktorunu da əlavə etmək olar".

R.Şükürov konqresə dünyanın bir çox universitetlərindən tələbələrin qatıldığını və tədbir boyunca kosmosun gələcəyi ilə bağlı keçirilən müxtəlif texniki sessiyalarda iştirak etdiyini də əlavə edib.

***"Azərbaycan"***

# KOBİA və Dubayın Kiçik və Orta Müəssisələr üzrə qurumu yeni əməkdaşlıq istiqamətlərini müzakirə edib

Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən "Global Village" Beynəlxalq Yarmarkasında Azərbaycan pavilyonunun açılışında iştirak edən Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) nümayəndə heyəti Dubayın Kiçik və Orta Müəssisələr üzrə qurumunun baş icraçı direktoru Abdul Baset Al Janahi ilə görüşüb.

KOBİA-dan AZƏRTAC-a bildirilib ki, görüşdə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi və Dubayın Kiçik və Orta Müəssisələr qurumu arasında mövcud əlaqələr və yeni əməkdaşlıq istiqamətlərinə, eləcə də Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiya çərçivəsində əməkdaşlıq imkanlarına, Bakıda Dubay KOB-larının iştirakı ilə tədbirin keçirilməsinə dair məsələlər müzakirə edilib.

KOBİA-nın idarə heyətinin sədri Orxan Məmmədov Azərbaycanda KOB-ların inkişafına verilən əhəmiyyət və bu sahədə görülən işlər, o cümlədən son bir ildə agentliyin fəaliyyəti və layihələri barədə ətraflı məlumat verib, yeni əməkdaşlıq imkanlarını diqqətə çatdırıb.

Dubayın Kiçik və Orta Müəssisələr üzrə qurumunun baş icraçı direktoru Abdul Baset Al Janahi KOBİA-nın son bir ildə KOB-ların dəstəklənməsi məqsədilə gördüyü işləri və həyata keçirdiyi layihələri maraqla qarşılayıb və əlaqələrin yeni inkişaf perspektivlərinə dair fikirlərini bildirib.




# Məhsuldarlıq üzrə hədəfimiz azı 28 sentnerdir



**Prezident İlham Əliyevin kənd təsərrüfatında ənənəvi sahələrdən olan pambıqçılığı inkişaf etdirmək barədə tapşırıq və tövsiyələri İmişli kəndlisinin fəaliyyətinə aydın istiqamət vermişdir. Amma pambıqçılıqda zəngin təcrübəmiz, böyük potensialımız olsa da, əmək bəhsində ön mövqeyə çıxmağa nail ola bilmirdik. Çəkilən zəhmət, həyata keçirilən tədbirlər gözlənilən nəticəni vermirdi. Keçən il pambıq əkini sahələrində hər hektarın orta məhsuldarlığının 13,6 sentner olması rayon rəhbərliyini, bu sahəyə məsuliyyət daşıyan hər kəsi narahat edirdi.**

Düşünüb-daşındıq, təhlillər apardıq. Hansı məsələlərdə səhvə yol verdiyimizi götür-qoy etdik. Gəldiyimiz son fikir bu oldu ki, pambıq münbit və etibarlı su təminatı olan ərazilərə əkilməlidir. Zaman və reallıq bu qərarın doğru olduğunu təsdiqlədi. Əkin sahələri xeyli azalsa da, məhsuldarlıq əhəmiyyətli dərəcədə yüksəldi. Cari mövsüm bu göstərici artıq 20 sentneri keçmişdir. Lakin hələ məhsulu yığılmamış sahələrimiz çoxdur. Pambıqçılarımızın builki hədəfi azı 28 sentnerdir. Ayrı-ayrı fermer təsərrüfatları daha böyük nailiyyətlər qazanmaq əzmi ilə çalışırlar. Elbrus Abbasovun, Suvarağa Aslanovun, Elxan Məmişovun, İlham Səfərovun başçılıq etdikləri fermer təsərrüfatlarında orta məhsuldarlıq 35-40 sentnerdir.

MKT-İK MMC-nin, MKT-İK İnnovasiya MMC-nin və "Azərpambıq" MMC-nin İmişli filialları rayonda torpaq istifadəçiləri ilə bağladıqları müqavilə əsasında pambıqçılığın inkişafına öz töhfələrini verirlər. Dövlət Aqrar İnkişaf Mərkəzinin İmişli filialı olaraq "P-Aqro" MMC-nin xətti ilə bu il 800 hektar sahədə pambıq əkilmişdir. Aqrotexniki tələblərin yüksək səviyyədə yerinə yetirilməsi, etibarlı su təminatı tarlalarda bol məhsil yetişdirilməsini təmin etmişdir. İndiyədək 2000 tondan çox pambıq tədarük etmişik. Hələlik orta məhsuldarlıq 25 sentnerdir. Heç şübhəsiz, son nəticə 30 sentnerdən çox olacaqdır.

Hazırda rayonun təsərrüfatlarında məhsul yığımının qızğın çağıdır. Tarlalarda 30 pambıqyığan maşın işləyir. Çalışırıq ki, havaların əlverişli keçdiyi bu günlərdən daha səmərəli istifadə edək, böyük zəhmət bahasına yetişdirilmiş sərvətin tez və itkisiz yığılıb tədarük edilməsinə nail olaq.

***Səlim MƏHƏRRƏMOV,***
***Dövlət Aqrar İnkişaf Mərkəzi İmişli filialının direktoru***

# Tütünçülük tovuzlular üçün əlavə gəlir mənbəyinə çevrilir

**Kənd təsərrüfatı məhsulları istehsalında çeşidin, ayrı-ayrı sahələrin səmərəliliyinin artırılması ölkə iqtisadiyyatının neft və qazdan asılılığının azaldılması deməkdir. Son illər ölkəmizdə bu sahədə həyata keçirilən məqsədyönlü tədbirlər uğurlu nəticələrə gətirib çıxarmışdır.**

Xüsusilə kənd təsərrüfatında daha çox gəlir gətirən məhsulların istehsalının artırılması istiqamətində görülən işlər aqrar sektorun qeyri-neft sektorundan payını yüksəltmişdir. Belə sahələrdən biri tütünçülükdür ki, bu sahədə Tovuz rayonunda da uğurlu nəticələrə nail olunur.

"Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı"nın icrası çərçivəsində Tovuzda çoxsaylı tədbirlər həyata keçirilmişdir. Artıq 4 ildir ki, tütün istehsalında yüksək göstəricilərə nail olan rayon sakinləri bu il də uğurlarını xeyli artırmışlar.

Cari ildə rayon üzrə 50 hektarda tütün əkilmişdir. Tütünçülər keçən ilkindən daha çox məsul götürmək üçün bütün aqrotexniki tədbirlərə ciddi əməl edərək sahələrdə bol məhsul yetişdirmiş və onu vaxtında dərərək qurutma məntəqələrinə təhvil verirlər. İndiyədək 55 tona yaxın tütün yarpağı tədarük edilmişdir.

Rayonda tütünçülüyün inkişafı, həmçinin əhalinin məşğulluğunun təminatında müsbət rol oynayır. Belə ki, mövsüm ərzində tütün sahələrində 250 nəfərədək insan çalışır.

Tovuzlular tütün toxumunu rayonda istehsal edirlər. Bu məqsədlə mütəxəssislər tütün toxumu yetişdirilən plantasiyalara baxış keçirib toxumluq bitkiləri seçərək abrabaksiya işləri aparırlar. Təxmini hesablamalara görə, rayon fermerləri gələn il də özləri istehsal etdikləri tütün toxumları ilə ehtiyacı ödəyəcəklər.

Hazırda 28 kənddə tütün əkilir. Amma onların sayı ildən-ilə artır. Düz Cırdaxan, Cəlilli, Abılbəyli, Alakol, Dönük Qırıxlı və sair kəndlərdə hər il on hektarlarla tütün əkilir. Elə kəndlər var ki, insanlar pay torpaqlarını birləşdirərək birlikdə tütün əkirlər. Çünki bu, daha çox gəlir gətirir. Ümumiyyətlə, tütünçülükdən əldə edilən gəlirlər kənd sakinlərini qane edir. Onlar daha çox qazanc əldə etdikcə, əkin sahələrini də genişləndirirlər. Hətta kəndlərdə elə ailələr var ki, bütünlükdə ailə



üzvlərinin hamısı bu sahədə çalışır.

Belə ailələrdən biri Düz Cırdaxan kəndinin sakini Akif Mehdiyevdir. Ailə bu il 1,5 hektar sahədən 3 tondan çox tütün dərib. Aran kəndinin sakini Azad Qurbanov da keçən ildən etibarən tütünçülüklə məşğuldur. Onun 3 hektar əkin sahəsi var. Keçən il olduğu kimi, bu il də yüksək göstəriciyə nail olan Azad gələcəkdə tütünçülüyü bir qədər də genişləndirməyi qərara almışdır.

Hazırda rayonda tütün dərimi davam edir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Gənc Alimlər Şurası "İnnovativ düşüncələrinizi reallaşdırın!" mövzusunda elmi-praktiki konfranslara start verib

**Aqrar Elm və İnnovasiya Mərkəzinin Gənc Alimlər Şurasının təşəbbüsü ilə Qubada yerləşən Meyvəçilik və Çayçılıq Elmi Tədqiqat İnstitutunda (MÇETİ) gənc alimlər üçün "İnnovativ düşüncələrinizi reallaşdırın!" mövzusunda elmi-praktiki konfrans keçirilib.**



Kənd Təsərrüfatı Nazirliyinin yaydığı məlumata görə, konfransda çıxış edən MÇETİ-nin direktoru İlham Qurbanov bildirib ki, kənd təsərrüfatı Azərbaycan iqtisadiyyatının prioritet sahələrindəndir və bu sektorun inkişafına ölkəmizdə böyük dəstək göstərilir: "Qloballaşan dünyada hər hansı bir sahəni innovasiyalarsız təsəvvür etmək mümkün deyil. Kənd təsərrüfatı sektorunda da nailiyyətlərin əldə olunması məqsədilə innovativ texnologiyalardan geniş istifadə etmək qarşıya qoyulan əsas məqsədlərdəndir. Aqrar sahədə innovasiyaların tətbiqi gəncləri səfərbər etməyə imkan verən vacib vasitələrdən biridir. Gənclərin innovasiyalara meyilli olması onları bu sektorla maraqlanmağa sövq edir".

Konfransda AEİM-nin Gənc Alimlər Şurasının sədri Faiq Xudayevin "Aqrar sahənin innovativ inkişafında gənclərin rolu" mövzusunda məruzəsi dinlənilib. Məruzədə Prezident İlham Əliyev tərəfindən Azərbaycan gəncliyinin inkişafına hər zaman böyük qayğı və diqqət göstərildiyi vurğulanıb. Bildirilib ki, hər bir sahədə olduğu kimi, dövlət tərəfindən aqrar sahənin innovativ inkişafında da gənc ixtisaslı kadrların yetişdirilməsi diqqət mərkəzindədir. Daha sonra Meyvəçilik və Çayçılıq, Üzümçülük, Tərəvəzçilik, Əkinçilik və Baytarlıq Elmi-Tədqiqat institutlarının gənc alim və mütəxəssisləri mövzu ətrafında çıxışlar edib, qarşılıqlı fikir mübadiləsi aparılıb.

Konfrans çərçivəsində iştirakçılar MÇETİ-nin laboratoriyaları və istixana kompleksi, həmçinin Zərdabi adına Elmi Təcrübə Bazasındakı tingçilik təsərrüfatı ilə yaxından tanış olublar. Gənc alim və mütəxəssislərə məlumat verilib ki, institutda yaradılan biotexnologiya laboratoriyası ölkəmizdə meyvəçiliyin inkişafı üçün mühüm əhəmiyyətə malikdir. Laboratoriyadakı iqlim otağında mikroklonal çoxaltma üsulu tətbiq edilməklə müxtəlif bitkilər yetişdirilir. Bu üsulla sortun xüsusiyyətlərini özündə daşıyan eyni bitkilərin alınması mümkündür. Azərbaycanda il ərzində ümumilikdə tumlu və çəyirdəkli 5 milyon meyvə tinglərinə ehtiyac var ki, bunun da böyük hissəsi xaricdən gətirilir. İnstitutda yeni biotexnologiya laboratoriyası yaradıldıqdan sonra qarşıya qoyulan məqsəd ilk 3 il ərzində illik ting istehsalını 2 milyona çatdırmaqdır. Bu da xaricdən ting idxalının qarşısını böyük ölçüdə alacaq.

Gənc Alimlər Şurasının təşəbbüsü ilə analoji konfranslar digər elmi-tədqiqat institutlarında da keçiriləcək.

# Ağsuda "Basqal Mədəni İrsi" seminarı, səyyar sərgi və mədəni irs turu keçirilib

**AR Dövlət Turizm Agentliyinin Qoruqları İdarəetmə Mərkəzi və "Basqal" Dövlət Tarix-Mədəniyyət Qoruğunun təşkilatçılığı ilə Orta əsr Ağsu şəhəri arxeoloji turizm kompleksində "Basqal mədəni irsi" seminarı və səyyar sərgisi, eləcə də "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi ilə əməkdaşlıq çərçivəsində Orta əsr Ağsu şəhəri mədəni irs turu keçirilib.**



Prezidentin "Basqal" Dövlət Tarix-Mədəniyyət Qoruğu haqqında 2018-ci il 3 oktyabr tarixli sərəncamının bir illiyinə həsr olunan tədbirlərə tarixçi alimlər, eləcə də Ağsu, İsmayıllı, Şamaxı rayonlarından, Bakı və Sumqayıt şəhərlərindən, Basqal qəsəbəsindən olan ictimaiyyət nümayəndələri, rəssamlar, müəllimlər, elmi işçilər, məktəblilər qatılmışlar.

İştirakçılar tarix üzrə fəlsəfə doktoru Fariz Xəlillinin bələdçiliyi ilə orta əsr Ağsu şəhəri, onun Cümə məscidi, buzxanası, sənətkarlıq emalatxanaları, hamam, şimal qala divarı, yaşayış evləri, qəbiristanlığı ilə tanış olublar. Tədbirlər zamanı orta əsr Ağsu şəhərini Dövlət Tarix-Mədəniyyət Qoruğu elan etdiyinə görə Prezident İlham Əliyevə minnətdarlıq ifadə edilib. Mütəxəssislərlə fikir mübadiləsi aparılıb, suallar cavablandırılıb.

Orta əsr Ağsu şəhəri arxeoloji turizm kompleksinin geniş yaşıl meydanında Basqaldan tapılan arxeoloji materiallar, Basqal kəlağayıları, Basqalın tarixi məkanlarını əks etdirən fotosərgisi təşkil edilmişdir. Sərgi bir gün ərzində Ağsuya gələn qonaqlar və yerli sakinlər üçün açıq olunmuşdu.

Sonra qonaqların iştirakı ilə "Basqal mədəni irsi" seminarı keçirilib. Seminarı "Basqal" Dövlət Tarix-Mədəniyyət Qoruğunun direktor müavini, tarix üzrə fəlsəfə doktoru Fariz Xəlilli açıb. O, Basqal qoruğu haqqında geniş məruzə edib, Prezidentin sərəncamlarından irəli gələn aktual və mühüm mühafizə və tanıtım tədbirlərindən danışıb. Fariz Xəlilli Basqal qoruğunda orta əsr Ağsu şəhəri, Ağsutex klubu və Tərəkəmə folkloru qrupunun sərgi və gələcəkdə mərkəzlərinin açılmasını arzuladıqlarını bildirib.



# Qapımıza qədər gələn bəla

## Geni dəyişdirilmiş məhsullar həyatımız üçün ciddi təhlükədir

**Dünyada toxumçuluq sahəsində monopoliyanın əldə edilməsi uğrunda transmilli şirkətlər arasında ciddi rəqabət gedir. Məqsəd aqrar sektorda məhsul istehsalına nəzarəti artırmaqla daha çox gəlir əldə etməkdir. Həmin şirkətlər bu yolla mövcud toxumçuluğu tədricən sıradan çıxarmağa və fermerləri istehsal etdikləri toxumları almağa məcbur etməyə səy göstərirlər.**

Bunun üçün birdəfəlik toxum istehsalına üstünlük verilir. Yəni köhnə toxumlar sıradan çıxarılır və fermerlər transmilli şirkətlərin yetişdirdikləri birdəfəlik toxumlardan istifadə etməli olurlar.

Mövcud toxum potensialını qorumaq üçün bu tendensiyaya qarşı dünyanın bir çox ölkəsində müvafiq tədbirlər görülür. Eyni zamanda toxumçuluqda yeni milli sortlar yetişdirməklə xarici təhlükələrin qarşısını almağa səy göstərilir. Xüsusilə insan üçün təhlükəli olan GDO-lu toxumların (GDO sözünün açıqlaması geni dəyişdirilmiş məhsullar deməkdir) ölkəyə daxil olmasına sədd çəkmək üçün müvafiq qanunlar qəbul edilir.

Ölkəmizdə belə təhlükələrdən qorunmaq üçün qanunvericilik bazası təkmilləşdirilir. "Toxumçuluq haqqında" Azərbaycan Respublikası Qanununun 27-ci maddəsinə əsasən, dövlət reyestrində qeydiyyatdan keçmiş sortluq və səpin keyfiyyətlərini təsdiq edən uyğunluq (mənşə) sertifikatı və fitosanitar sertifikatı olan toxumlar ölkəyə idxal edilə bilər. Həmçinin dövlət reyestrində qeydiyyata alınmamış sortların toxumlarının yalnız seleksiya, tədqiqat, sınaq və sərgilərdə nümayiş etdirmək məqsədilə idxal edilməsinə icazə verilir. "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında" Azərbaycan Respublikası Qanununun 21.1. bəndinə əsasən Azərbaycan Respublikasının ərazisinə genetik modifikasiya olunmuş bitkilərin genetik materiallarının gətirilməsi, rayonlaşdırılması və dövlət reyestrinə daxil edilməsi qadağandır.

Qanun genetik modifikasiya olunmuş materialların gətirilməsinin qarşısını almaq üçün təkcə inzibati və pul cərimələri ilə kifayətlənmir. Bu işə ərzaq və milli təhlükəsizlik baxımından yanaşaraq qanuna əməl etməyən hüquqi və fiziki şəxslər barədə Cinayət Məcəlləsinin 166-cı (ixtiraçılıq və patent hüquqlarını pozma) və 200-cü maddələrinin (istehlakçıları aldatma və ya pis keyfiyyətli məhsul istehsal etmə və satma) tələblərinə əsasən müvafiq tədbirlər görülür.

GDO-lu toxumlardan məhsul yetişdirməyin mənfi fəsadları barədə dünyanın elmi dairələri tərəfindən çoxdandır ki, həyəcan təbili çalınır. Bu da səbəbsiz deyil. Bugünədək aparılan araşdırmalar göstərir ki, belə məhsullar insanların dəhşətli və sağalmaz xəstəliklərə tutulmasına səbəb olur. Belə məhsulların insan orqanizmində əsasən toksik, allergik, xərçəng və digər xəstəlikləri əmələ gətirmək kimi xroniki təsirləri ola bilər.

Geni dəyişdirilmiş məhsullar hazırda dünyada geniş yayılıb. İlk dəfə 1972-ci ildə Pol Berq tərəfindən geni dəyişdirilmiş qida hazırlanıb. Bir il sonra, yəni 1973-cü ildə o, geni dəyişdirilmiş bakteriya ala bilib. Məqsəd isə bu yolla daha yüksək məhsuldarlığa, isti və soyuğa davamlı məhsul əldə etməkdir. İlk baxışdan bu, çox xoşniyyətli görünür. Lakin bunun fəsadları danılmazdır. Belə ki, hər hansı bir canlıya, meyvəyə, tərəvəzə, başqa canlıya məxsus yad bir genin köçürülməsi son nəticədə həmin köçürülmüş genin yeni orqanizmdə fərqli xüsusiyyətlər yaratmasıdır. İstiliyi sevən bitkinin soyuq mühitdə yetişdirilməsi üçün ona soyuq mühitdə yaşayan digər canlıya məxsus yad gen köçürülür. Yeni köçürülmüş genin başqa orqanizmdə fərqli xüsusiyyətlər yaratması insan sağlamlığı üçün təhlükə törədə bilir. Təsəvvür edin ki, istiliyi sevən çiyələyə soyuq sularda yaşayan balıq geni köçürülür. Xərçəng və digər heyvanların genlərinin bitkilərə köçürülməsi dünyanın vicdanlı elm adamlarında vahimə yaradır. Bir çox alimin fikri belədir ki, bunun dəhşətli fəsadları XXI əsrin 30-50-ci illəri arasında baş verəcək. Dünyanın əksər alimləri fikirləşirlər ki, həmin dövrdə yarıinsan-yarıxərçəng, yarıinsan-yarıbalıq olan canlılar yaranmayacağına heç kim zəmanət verə bilməz. Onda insan öz əli ilə özünə etdiyi qəsdin dəhşətli olduğunu başa düşəcək, lakin bunun qarşısını almaqda aciz qalacaq.

GDO-lu məhsullar orqanizmimizə bəzilərinin fikirləşdiyi kimi yalnız meyvə və tərəvəz qəbulundan keçmir. İnsan üçün geriyə dönüşü olmayan fəsadlar törədə biləcək dəyişikliyə səbəb olan digər məhsullar da var. Belə ki, GDO-lu yemlərlə qidalanan heyvanların ətindən, südündən, quşların ətindən, yumurtasından istifadə də eyni acı nəticələrə səbəb olur. Beləliklə, bitkiçilikdən başlanan bu bəla şaxələnərək digər sahələri də əhatə edir.

Dünyada ən çox istifadə olunan bitki soyadır. Demək olar ki, dünya üzrə bütün məhsullarda bu və ya digər dərəcədə onun yağından istifadə olunur. Rusiya televiziya kanallarının birində GDO ilə bağlı hazırlanan veriliş diqqətimizi cəlb etdi. Belə ki, teleaparıcı bu sahənin mütəxəssisləri ilə Moskvada yerləşən elit supermarketlərindən birinə daxil oldu və onlar buradan üç növ məhsul - kolbasa, blinçik və uşaq qidası olan süd götürdülər. Laboratoriyada aparılan analizlər nəticəsində isə məlum oldu ki, bu qidaların hamısı tərkibinə görə GDO-ludur. Hamısının hazırlanmasında soya yağından istifadə edilib.

Artıq mütəxəssislər deyirlər ki, dünyada GDO-suz soya toxumu cüzi miqdarda qalıb. Belə davam edərsə, həmin bitkinin sağlam toxumu yaxın bir neçə ildə tamamilə yox olacaq.

Belə hal təkcə soya toxumunda mövcud deyil. Ölkəmizdə ən çox istifadə olunan pomidor toxumlarının da dünyada originalları yox olmaq üzrədir. İndi özünüz düşünün. Bu dəhşətli bəla qapımızın astanasındadır. Artıq içəri daxil olmadığını da əminliklə deyə bilmərik. Çünki kənddə yaşayan və pomidor əkini ilə məşğul olanlar söyləyirlər ki, yetişdirdikləri məhsuldan toxum götürə bilmirlər. Bu, artıq narahatedici faktdır. Çünki belə xüsusiyyətlər əsasən GDO-lu toxumlara aiddir.

Dünyada toxum yetişdirən transmilli şirkətlər daha böyük qazanc əldə etmək üçün minillərin sınağından çıxan, insan üçün faydalı olan bitki toxumlarını tədricən sıradan çıxarır. Artıq insanlar, xüsusilə elm adamları belə halın hansı nəticələr doğuracağını anlayırlar. Bunun nəticəsidir ki, həmin növ məhsulların yetişdirilməsinə Avropa ölkələrində etirazların sayı artır. Bu səbəbdən bəzi Avropa ölkələrində belə məhsullara qismən qadağa qoyulub. Həmin ölkələrdə GDO-lu qidaların, toxumların və yemlərin üzərində xüsusi etiketlər olur ki, insanlar seçim etməkdə azad olsunlar. Belə hal sağlamlığına biganə olmayan insanlara öz həyatlarını lazımsız risklərdən qorumağa imkan verir.

Sonda onu bir daha qeyd edək ki, bu barədə fikir ayrılığına görə dünya alimləri iki yerə bölünür: GDO-nun tərəfdarları və əleyhdarları. Ancaq o da məlumdur ki, bu işdən milyonlarla gəlir əldə edən şirkətlər müəyyən pul müqabilində dünyanın tanınmış alimlərinə GDO-nun ziyansız olması barədə elmi məqalələr yazdırır. Belə gizli əməkdaşlığın üstü açılandan sonra həmin alimlər elm aləmində artıq qəbul olunmur. Ancaq bugünədək aparılan araşdırmaların ilkin nəticələrinin insan üçün acınacaqlı olduğunu bu sahə üzrə alimlərin çoxu təsdiq edir. Bir sözlə, bəşəriyyəti daha böyük fəsadlar gözlədiyini deyən elm adamlarının sayı gündən-günə çoxalır.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# 10 dərəcə şaxta, 14 santimetr qar

**Quba rayonunun yüksək dağlıq ərazilərində qarın hündürlüyü 14 santimetrə çatıb.**



Rayonda yerləşən Şimal-Şərq Regional Hidrometeorologiya Mərkəzindən verilən məlumata əsasən, qar yağması ilə əlaqədar Qubanın Qırız və Xınalıq kəndlərində, həmçinin Qusarın Ləzə kəndində temperatur mənfi 10 dərəcəyədək enib. Qarın hündürlüyü Xınalıq və Qırızda 14, Ləzə kəndində isə 10 santimetrdir.

Qar səbəbindən Quba rayonunun ucqar kəndlərinə gedən yollarda avtomobillərin hərəkəti çətinləşsə də, hazırda bütün istiqamətlərdə magistrallar açıqdır.

Daha təhlükəli sayılan Quba-Xınalıq yoluna Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin yerli idarəsinin növbətçi briqadaları nəzarət edir. Yolun qarla örtülən hissəsi təmizlənib, əraziyə qum-duz qarışığı səpilib. Yerli sakinlərin, eləcə də turistlərin Xınalıq kəndinə gediş-gəlişində problem yoxdur.

## Noyabrın 7-də əfsanəvi Neft Daşlarının 70 yaşı tamam olur

*Mən böyük qürur hissi ilə qonaqlara Neft Daşlarını göstərirəm, çünki Azərbaycan neftçiləri dünyada ilk dəfə açıq dənizdə neftçıxarmanı əldə etmişlər. Biz bununla fəxr edirik. Xəzərin bütün neft yataqları məhz Azərbaycan alimləri və neftçiləri tərəfindən kəşf edilmişdir. Hesab edirəm ki, dünya qarşısında müstəqil Azərbaycan Respublikasının böyük xidməti odur ki, o, Xəzərin zəngin neft-qaz yataqlarını dünyaya təqdim etdi.*

**Heydər ƏLİYEV**



*Əgər vaxtilə Neft Daşlarında Azərbaycan neftçiləri ağır, çətin şəraitdə böyük qəhrəmanlıq göstərərək işlərə başlamasaydılar, ondan sonrakı layihələr ya gecikə, ya ümumiyyətlə, həll olunmamış qala bilərdi. Bu gün Azərbaycanın neft-qaz potensialının əksəriyyətini təşkil edən "Azəri-Çıraq-Günəşli" yataqlarının kəşfiyyatı və işlənməsi məhz burada qoyulan təməl üzərində reallaşır.*

**İlham ƏLİYEV**

Əvvəli 1-ci səh.





# Azərbaycan neftçilərinin qəhrəmanlıq abidəsi

### "Yeddi gəmi adası"

Xəzər dənizi akvatoriyasında neftin varlığı barədə ilk mənbələr XVIII əsrə təsadüf edir. Neft Daşlarının təbii yanacaq sərvətləri haqqında akademik Q.V.Abix hələ 1863-cü ildə məlumat verib. Burada XIX yüzillikdə və XX əsrin birinci yarısında da tədqiqatlar aparılıb. 1943-1944-cü illərdə keçmiş SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının sessiyalarında Pirallahı adasında böyük neft yatağının, Çilov adasında və "Qara daşlar"da neft təzahürünün olması barədə məruzələr edilib.

1945-ci ildə geoloq Ağaqurban Əliyevin başçılığı ilə SSRİ Elmlər Akademiyasının ekspedisiyası "Neft Daşları"nın tədqiqatına başlayır və bu iş 1948-ci ilə qədər davam edir.

Lakin istər Bakıda, istərsə də Moskvada kəşfiyyat və qazma işlərinin aparılması əleyhinə çıxan qüvvələr işə mane olmağa cəhd göstərirlər. Bunlar əlbəttə ki, erməni millətinin rəhbər dairələrdə oturan nümayəndələri idi. Lakin geologiya-mineralogiya elmləri doktoru, professor Ağaqurban Əliyev Azərbaycanın görkəmli alim və mütəxəssislərinin müdafiəsi və respublika rəhbərliyinin dəstəyi ilə Neft Daşlarının işlənməsi təklifinin qəbul edilməsinə nail olur.

Neft dənizin dibindən baş qaldırıb bir hissəsi suyun üzərinə çıxan qara daşlar yaxınlığında müşahidə olunduğundan buranı ilk vaxtlar "Qara daşlar" adlandırıblar. Böyük neft təşkilatçısı Sabit Orucovun, təcrübəli qazma mühəndisi Yusif Səfərovun və kəşfiyyatçı geoloq Ağaqurban Əliyevin təklifi ilə Bakı gəmi təmiri zavodlarında istifadədən silinmiş 7 iritonnajlı gəmi gətirilərək "Qara daşlar"ın yanında basdırılıb. Bundan sonra ərazini "Yeddi gəmi adası" adlandırmağa başlayıblar. Bu qeyri-adi ada Xəzərin fatehlərini fırtınalardan qoruyan sığınacağa və dənizin dərin qatlarına nüfuz etmək üçün istinad nöqtəsinə çevrilib.

1948-ci ilin sonunda ilk quyunun qazılacağı yer təyin edilir. 1949-cu ilin əvvəlində Neft Daşlarına Bakı vaqon təmiri zavodunun hazırladığı ilk ev gətirilir. Həmin ilin aprel ayında buruğun, daha sonra qazma avadanlığının quraşdırılmasına başlanır və bu iş tezliklə sona çatdırılır. Kəşfiyyat Qazma İdarəsi rəhbərinin əmri ilə Mixail Kaveroçkin ilk qazma briqadasının ustası təyin edilir. İyunun 24-də isə birinci kəşfiyyat quyusunun qazılmasına başlanır.

Quyudan götürülən nümunələr debiti 100 tona yaxın ilk neft fontanının yaxınlaşmasını xəbər verir. Beləliklə, 1949-cu il noyabrın 7-də Xəzərin açıq qoynunda ilk neft quyusu fontan vurur. Ertəsi gün "YAK-6" kateri ilə buraya SSRİ-nin və Azərbaycanın bir qrup rəhbər işçisi, alim və mütəxəssisi gələrək neftçilərin sevincinə şərik olur.

70 il əvvəlin təqvimindəki 7 noyabr günü sonralar Neft Daşları adını almış mədən-şəhərin "doğum günü" olmaqla bərabər, həm də tarixə dünyada dəniz nefti erasının başlandığı gün kimi düşüb.



### Xəzərlə ülfət bağlayanlar

1951-ci ildən "Neft Daşları"nın, 1963-cü ildən isə "Palçıq Pilpiləsi"nin sənaye əhəmiyyətli işlənməsinə başlanıb. Həmin vaxtdan indiyədək bu yataqlardan fasiləsiz olaraq neft və qaz çıxarılır. "Neft Daşları" NQÇİ-nin hər iki yataqdan ümumilikdə qalıq çıxarıla bilən neft ehtiyatı 23 milyon 577 min ton təşkil edir.

İstismar quyu fondu 520 quyudan ibarətdir. Onlardan 504-ü fəaliyyətdə olan quyulardır. İdarənin gündəlik neft hasilatı 3014 ton təşkil edir. Son dövrlərdə göstəricilər ildən-ilə yaxşılaşır. Ötən 5 ilə aid rəqəmlər bunu bir daha təsdiqləyir. Belə ki, idarədə 2013-cü ildə 820, 2014-cü ildə 838, 2016-cı ildə 907, 2017-ci ildə 924, 2018-ci ildə 945 min ton neft hasil olunub. Qazçıxarmada keçən il son onilliklərin ən yüksək göstəricisi qazanılıb - 83 milyon kubmetr hasil edilib. Cari ilin 9 ayında da tapşırıqlara artıqlaması ilə əməl olunub. 721 min ton neft, 66 milyon kubmetr qaz çıxarılıb.

Bütün bunlar Xəzərin fırtınalı qoynunda ekstremal şəraitdə işləyən Azərbaycan neftçisinin fədakar əməyinin, ona hərtərəfli qayğısını getdikcə artıran Azərbaycan dövlətinin dəstəyinin nəticəsidir.

...Estakadalar sağdan-soldan bir-birinə calanaraq açıq dənizdə müxtəlif istiqamətlərə doğru şaxələnib. Uzaqdan baxanda onlar yollara bənzəyir. Amma bunlar adi yollar deyil. Sularla əhatə olunduqları üçün hər iki yandan polad məhəccərlərlə örtülüb. İndi dəniz şəhərindəki bu bənzərsiz yolların uzunluğu 200 kilometri ötür.

Estakadalar boyunca rəngbərəng borular uzanır. Bu yaşıl, mavi, qırmızı, sarı, ağ boruların təyinatları da müxtəlifdir. Biri neft, digəri qaz, üçüncüsü lay suları daşıyır. Başqa biri ehtiyat xətdir. Onlara estakadaüstü kəmərlər də deyirlər. Bir sözlə, bütün bunların hamısını neftçilər özləri daha yaxşı bilirlər.

Bu da neftçilər... Operatorlar, ustalar, qazmaçılar, təmirçilər, inşaatçılar. Hərə öz işi ilə məşğuldur.

32 ildir Neft Daşlarında çalışan Murad Adıgözəlov dənizdə neft-mədən hidrotexniki qurğular sahəsinin rəis müavinidir. Deyir ki, düşünməyin, Neft Daşları qocalır. O bir yandan yaşa dolduqca, bir yandan gəncləşir. Sıradan çıxan qurğular təzələnir, yəni yeni estakadalar, meydançalar tikilir.

Son 5 ildə "Neft Daşları" yatağında onlarca stasionar dəniz özülü, geniş sahəsi olan estakadayanı meydançalar, ümumi uzunluğu 100 metrlərlə ölçülən estakadalar inşa edilib. Növbəti 5 il ərzində "Neft Daşları" və "Palçıq Pilpiləsi" yataqlarının hər birində dörd meydançanın tikintisi planlaşdırılıb. Bütün qurğuların saz vəziyyətdə olması daim diqqət mərkəzindədir. Odur ki, mütəmadi olaraq yataqların ərazisində cari təmir işləri də həyata keçirilir.



İkinci neft və qazçıxarma sahəsinin ustası Namiq Səmədov əlavə edir ki, bu cavanlaşma kollektiv üzvlərinin tərkibində də özünü göstərir. Məsələn, onun işlədiyi sahədə həm yaşlı, həm cavan neftçilər çalışır. Təcrübəli işçilər öz səriştə və bacarıqlarını səxavətlə gənclərə ötürürlər. Burada hamı bir-birinə kömək, arxa-dayaqdır. Elə bu birliyin nəticəsidir ki, 2-ci sahədə də tapşırıqlar artıqlaması ilə yerinə yetirilir. Yeri gəlmişkən, sahənin sutkalıq neft hasilatı planı 368 tondur.

Dəniz neftçilərinin dostluğu möhkəm, yoldaşlığı etibarlı olur. Dəli-dolu Xəzər onları çox sınaqdan keçirir. Elə burada da həmin fədakar neftçilərdən daha bir neçə nəfəri ilə - qara qızılı dənizin dərin qatlarından üzə çıxarmaq üçün qazma işləri aparan insanlarla, qazmaçılar Niftalı Abbasov, Oqtay Rzayev, qazmaçı köməkçisi Rüstəm Nəzirovla rastlaşırıq. Bura son illərdə tikilən meydançalardan biri - 331 nömrəli meydançadır. Qazmaçılar burada artıq 3 yeni quyu qazaraq mənimsəyib, 4-cü quyuya keçiblər.

Həmsöhbət olduğumuz bu insanların hər biri özlərinin neçə-neçə həmkarının adlarını çəkir, işləri, cəsurluqları barədə danışırlar. Hamısının adını, soyadını yazmaqla siyahı bitən deyil. Odur ki, Neft Daşlarındakı tibb-sanitar hissəsində həkim-oftalmoloq işləyən Məlahət Cabbarovanın sözlərini fikrimizə söykək tuturuq: "Neft Daşlarında işləyən qardaşlarımızın hərəsi bir qəhrəmandır. Bir ömrün yarısını açıq dənizin, özü də Xəzər kimi bir coşqun dənizin qoynunda keçirmək asandırmı? İradəsi möhkəm, məqsədi aydın olmayan kəs buradan elə birinci qasırğanı görəndən sonra çıxıb gedər..."

Qalanlar isə Xəzərlə ülfət bağlayan, dənizi seçənlər və dənizin seçdikləridir.



### Unudulmaz xatirələr

Ulu Öndər Heydər Əliyev dəniz neftçilərinə həmişə qayğı göstərirdi. Hələ 1967-ci ildə təhlükəsizlik orqanlarında rəhbər vəzifədə işləyərkən Heydər Əliyev Neft Daşlarına gəlmiş, müdafiə, təhlükəsizlik məsələləri ilə bağlı mühazirələr oxumuş, fərdi söhbətlər aparmışdı. Neft Daşları rəhbərliyi ilə görüşərək klubda, kitabxanada, yaşayış evlərində olmuş, neftçilərin şəraiti, məişəti, istirahəti, asudə vaxtının təşkili ilə maraqlanmışdır.

1969-cu il avqust plenumunda Heydər Əliyevin təklifi ilə Azərbaycan KP MK-nın neft sənayesinin inkişafını sürətləndirmək tədbirləri barədə qəbul etdiyi qərar respublikada "qara qızıl" hasilatının enmə tempinin qarşısını almaq üçün geniş proqram müəyyənləşdirdi. Neftçilər qürurla qeyd edirlər ki, bundan sonra Neft Daşları da yeni inkişaf mərhələsinə qədəm qoydu.

O zaman "Neft Daşları" Neft və Qazçıxarma İdarəsinin tərkibində istismar olunan "Günəşli" yatağında ilk quyuların qazılması, ilk platformanın qoyulması, daha dərin yerlərdə özüllərin qurulmağa başlaması və digər önəmli işlər dəniz neftində inqilab yaratdı.

1972-ci ildə respublikanın rəhbəri Heydər Əliyev başda olmaqla böyük bir nümayəndə heyəti Neft Daşlarına gəldi. Kiyev Şəhər Partiya Komitəsinin birinci katibinin rəhbərlik etdiyi heyət də bu tərkibdə idi. Neft Daşlarında gözəl tədbir düzənləndi. Ulu Öndərin ömür-gün yoldaşı, akademik Zərifə xanım Əliyeva ilə görüşlər, səmimi söhbətlər neftçi qadınların ürəyincə oldu, uzun müddət xatirələrdən silinmədi.

1975-ci ildə Azərbaycan KP MK Neft Daşlarının 25 illik yubileyinin qeyd olunması barədə qərar qəbul etdi. Yubiley təntənələri 1975-ci il iyunun 17-də keçirildi. Ümummilli Lider Heydər Əliyev və digər nümayəndələr "Möcüzələr adası"na gəmi ilə gəldilər. Gəmi meydançasında neftçilər Ulu Öndəri böyük sevinclə, gül-çiçəklə qarşıladılar. Heydər Əliyevlə birlikdə SSRİ Neft Sənayesi naziri V.A.Şaşin, respublikamızın nümayəndələri və incəsənət ustalarından ibarət böyük bir dəstə gəlmişdi.

Mitinqdə Heydər Əliyev çıxış edərək dəniz neftinin tarixindən, neftçilərin uğurlarından ətraflı söhbət açdı, qabaqcılların təltifat mərasimini keçirdi. Ulu Öndər elə oradaca yenicə bünövrəsi qoyulmuş beşmərtəbəli yaşayış binalarının inşasını sürətləndirmək barədə əlaqədar təşkilatlara göstəriş verdi. Neft Daşlarında söylənən bütün təklif və qeydlərə həssaslıqla yanaşan Ulu Öndər məsələlərin həllinə dair konkret tapşırıqlar verdi. O cümlədən, neftin sahilə boru xətti ilə nəql olunması, elektrik stansiyasının tikilməsi və digər əhəmiyyətli məsələlər Ümummilli Lider Heydər Əliyevin köməyi ilə öz müsbət həllini tapdı.

Yubiley tədbirləri ertəsi gün Bakıda, indiki Heydər Əliyev Sarayında davam etdirildi.

1999-cu ildə Neft Daşlarının 50 illiyi artıq müstəqil ölkəmizdə böyük təntənə ilə qeyd olundu.

Neft Daşlarına bu münasibət Azərbaycan dövlətinin bugünkü iqtisadi siyasətində, Prezident İlham Əliyevin dəniz şəhərinin inkişafına və onun əməkçilərinə göstərdiyi qayğıda öz təcəssümünü tapır. Neft Daşlarının 55 və 60 illik yubileylərində dövlət başçısı polad özüllər üzərində qurulmuş şəhərin, fədakar neftçilərin qonağı olmuş, 65 illik yubileyində isə "Möcüzələr adası"nın əməkçilərinin böyük bir dəstəsini yüksək mükafatlarla təltif etmişdir.

### Onlar bu qayğıya layiqdirlər

Azərbaycan dövləti neftçi əməyini yüksək dəyərləndirir. Prezident İlham Əliyev demişdir: "Neft Daşları Azərbaycan xalqının, Azərbaycan dövlətinin ayrılmaz bir dəyəridir, çox gözəl inkişaf nümunəsidir. Azərbaycanda neftçilər bütün dövrlərdə böyük hörmətə malik adamlar olmuşlar, bu gün də belədir. Neftçi peşəsi çox şərəfli peşədir və neftçilər həmişə dövlət tərəfindən yüksək qiymətləndirilir və bundan sonra da belə olacaqdır".

Bu, özünü onlar üçün yaradılan iş və məişət şəraitində də aydın göstərir. Ətraf mühitin ekoloji təmizliyinə, işçilərin təhlükəsizlik şəraitində çalışmasına böyük diqqət göstərilir. Onların hamısı xüsusi geyimlə təchiz edilib.

Neft Daşlarında "Xəzər İaşə" MMC-nin yeməkxanası və çörək zavodu fəaliyyət göstərir. Neftçilər yeməkxanadan səhər, günorta və axşam məmnuniyyətlə istifadə edirlər. Yeməklərin və çörəyin keyfiyyətindən çox razıdırlar. Deyirlər ki, hətta sahilə dönəndə buradan evlərinə də "dəniz çörəyi" alıb aparmaq istərdilər...

İşdən yorğun qayıdan neftçiləri 5 və 9 mərtəbəli yataqxanalarda işıqlı, səliqəli otaqlar gözləyir. Hər birində soyuducu, kondisioner, televizor quraşdırılıb. Yataqxanalara gecə-gündüz fasiləsiz olaraq isti və soyuq su verilir.

Neft Daşlarında - bir qarış torpağı olmayan ərazidə yamyaşıl park salınıb, cürbəcür gül-çiçək əkilib. Əlbəttə, qurudan torpaq gətirməklə... (Bu da "Möcüzələr adası"nın daha bir möcüzəsi).

İstirahət saatlarında ikimərtəbəli "Çay evi", qapalı idman zalı neftçilərin üzünə öz qapılarını geniş açır.





Sosial şöbənin əməkdaşı Rahin Abbasov təkcə bu ilin əvvəlindən işçilərin rahatlığı üçün görülən tədbirlərdən danışdı:

- Bütün ərazidə, o cümlədən yataqxana korpuslarında, işçilərin sərnişin gəmisinə minib-düşmə meydançalarında təmizlik işləri aparılıb, 400 qızılgül kolu alınaraq mərkəzi parkda basdırılıb. Neft və qazçıxarma sahələrinə, stasionar dəniz özüllərinə ehtiyaclarından asılı olaraq əşya və avadanlıqlar, məsələn, elektrik samovarı və sobası, su dispenseri, soyuducu, yataq dəstləri və s. verilib. Yeməkxana üçün soyuducular, ətçəkən və şirəçəkən, xəmiryoğuran cihazlar və s. alınıb. Dəniz şəhərinə doqquz ay ərzində gəmi ilə 64 min tona yaxın içməli su gətirilib. Bundan əlavə, ƏKS OSMOS qurğularında gündəlik tələbata uyğun həcmdə dəniz suyu təmizlənərək və qızdırılaraq yataqxana korpuslarına verilir.

Neft Daşlarında bütün dövlət bayramları və milli bayramlar, tarixi günlər təntənə ilə qeyd edilir. Bunlar neftçinin rahatlığı üçün həyata keçirilən tədbirlərin yalnız bir hissəsidir.

...Bu bənzərsiz məkana hər gün yenə də vertolyotlar enir, gəmilər yan alır. Buradakı bütün qurğu və tikililər kimi onlar da müasirləşib. Yaşının üstünə yaş gəldikcə dəniz şəhərində neftçi nəsilləri dəyişir. Qurbanların, Mixaillərin, İsrafillərin, Bəxtiyarların hünəri indi Firatların, İlqarların, Azərlərin, İsraillərin işində-əməlində yaşayır. Ulu Öndər Heydər Əliyevin Azərbaycan neftçilərinin qəhrəmanlıq abidəsi adlandırdığı Neft Daşlarının qəhrəmanlıq salnaməsi davam edir.

*Flora SADIQLI,*
*Ağaəli MƏMMƏDOV (foto),*
*"Azərbaycan"*

### Ötən illərin nişanələri

- *1951-ci il fevralın 18-də Neft Daşlarından neft vurulmuş ilk tanker yola salınıb.*
- *1953-cü ildə burada yaşayış qəsəbəsi, iki neftyığma məntəqəsi, bir sutəmizləmə qurğusu inşa edilib.*
- *1954-cü ildə sutəmizləmə qurğusu genişləndirilib, yanğınsöndürən nasos stansiyası və əmtəə çənləri parkı tikilib.*
- *1955-1956-cı illərdə yaşayış qəsəbəsi genişləndirilib, daha bir yaşayış qəsəbəsi salınıb.*
- *1957-ci ildə buxar-turbin elektrik stansiyası istismara verilib.*
- *1958-1960-cı illərdə hava və qazlift kompressor stansiyaları, mədəni-məişət köşkü, texnikum binası tikilib, elektrik stansiyasının əsası qoyulub.*
- *1964-cü ildə Gürgan elektrik yarımstansiyasından Neft Daşlarına uzunluğu 27 kilometr olan ötürücü xətt çəkilib.*
- *1966-1975-ci illərdə dirəklər üzərində iki beşmərtəbəli yataqxana və idarə binası istifadəyə verilib. Çörək zavodu, bir sıra digər sosial və istehsalyönümlü obyektlər tikilib.*
- *1976-1980-ci illərdə beşmərtəbəli üç yataqxana binası, 300 yerlik yeməkxana, 450 yerlik mədəniyyət sarayı və digər tikililərlə genişləndirilib.*
- *1981-1986-cı illərdə qadınlar üçün doqquzmərtəbəli yataqxana binası, yeni vertolyot meydançası, sərnişin gəmisi üçün körpü tikilib. Dübəndi neftyığma məntəqəsinə iki sualtı neft kəməri çəkilib.*
- *2006-cı ildən başlayaraq korpuslarda yenidənqurma və əsaslı təmir işləri görülüb, mərkəzi park tam yenidən qurulub, şəhidlərin xatirəsinə abidə qoyulub, yeməkxana, klub, tibb məntəqəsi müasir tələblərə uyğun əsaslı təmir edilib.*
- *Neft Daşlarının 60 illik yubileyi (2009-cu il) ərəfəsində burada dövlət bayrağı quraşdırılıb, Ümummilli Lider Heydər Əliyevin xatirəsinə hörmət əlaməti olaraq abidəsi ucaldılıb, Heydər Əliyev Muzeyi tikilib.*

# Tarixi lentə köçürən...



## ◆ Ömür səhifələri

**“Hərənin bir alın yazısı var deyirlər. Bu həyatda qismətinə nə yazılıbsa, onu yaşayırsan, o cığırla gedirsən. Allaha şükür edirəm ki, mənə xoşbəxt tale fürsəti verdi. Yüzlərlə fotoqraf arasından seçilmiş oldum, Ulu Öndər Heydər Əliyevin fotolarını çəkmək məhz mənim nəsibimə düşdü. Bu fəxrdir, şərəfdir ki, Ulu Öndərin arxivdə olan bütün rəsmi fotolarının müəllifi mənəm. Bəlkə də elə buna görə mənim də adım tarixə yazıldı - Heydər Əliyevin şəxsi fotoqrafı kimi...”**



### Azərbaycanın ən şanlı səhifələrinin fotosalnaməçisi

*Həyat anlardan yaranır. Qatarlaşıb ömrün qürub üfüqünə doğru sürətlə irəliləyən acılı, şirinli, sevincli, kədərli, nisgilli, xoşbəxt anlardan. Anlar bir-birini qovur, anlar bir-birinin ardınca gözdən itir... Su kimi axıb gedir hiss etmirsən, çata bilmirsən, görə bilmirsən, tuta bilmirsən...*

*Ötənləri geri qaytarmaq mümkünsüzdür. Sadəcə onun hansısa məqamını, anını dondura, sonra dəfələrlə baxa, həsrətlə ötənlərə nəzər sala bilirsən... İllərin o üzündən gülümsəyən, xoşbəxt, qəmgin, pərişan çöhrələr boylanan fotolar sayəsində...*

*O da ömrünü zamana, “dur” deməyə həsr edib. Taleyinə Azərbaycanın ən şanlı səhifələrinin fotosalnaməsini yaratmaq düşüb. Tarixin ən böyük azərbaycanlısının - Ulu Öndər Heydər Əliyevin bu gün jurnallarda, kitablarda, evlərdə, muzeylərdə yer alan əksər fotolarının müəllifi olmaq kimi naxışlı bir qismətə sahib olub...*

*10 il Ulu Öndər Heydər Əliyevin, 3 il isə Prezident İlham Əliyevin şəxsi fotoqrafı kimi çalışmış **Rafiq Bağırov** “Ömür səhifələri”ndə ötənlərə nəzər salır, hər şəkli bir dünya xatirə olan günlərindən söhbət açır...*

### Günlərlə foto çəkmək istəyirdim

- Böyük Vətən müharibəsinin acı izlərinin hələ silinmədiyi, insanların yoxluqla sınağa çəkildiyi bir zamanda, 14 may 1947-ci ildə Bakıda jurnalist ailəsində anadan olmuşam. Atam əslən şuşalı, anam isə şamaxılı idi. Atam Hidayət Bağırov “Kommunist” qəzetinin Təbliğat və təşviqat şöbəsinin müdiri idi. Bir müddət sonra isə “Elm və həyat” adlı yeni bir jurnal yarandı və atam da təcrübəli jurnalist kimi həmin jurnala baş redaktor təyin olundu. “Elm və həyat” respublikada ən məşhur jurnallardan birinə çevrilmişdi. O, bütün günü jurnalın daha yaxşı çıxması üçün çalışırdı. Hətta gecələr də yatmır, başqa qəzetlərdən, jurnallardan informasiyalar toplayırdı. O zaman informasiya toplamaq çox



Heyif ki, uğurlarımı görmək cəmi 52 il ömür yaşayan atama qismət olmadı...

çətin idi, məlumat almağa başqa qaynaq, internet filan yox idi. İndiyə qədər də atamı tanıyanlar onun haqqında deyirlər ki, Hidayət Bağırov çox savadlı və peşəkar jurnalist olub. Təbii ki, illər sonra atam haqqında bu cür sözlər eşitmək mənə qürur verir. Ailəmizdə bircə qardaşım Cahangir Bağırov onun yolunu davam edib jurnalist oldu. İndi Azərbaycan radiosunda işləyir. Digər qardaşlarım isə musiqi sahəsinə yönəliblər.

Atamın fotoaparatı var idi, həm ailəmizi, həm də jurnal üçün lazım olan şəkilləri çəkirdi, evdə özü aşkarlayıb çap edirdi. Mən də lap kiçik yaşlarımdan bütün bu proseslərin içində, atamın peşəsinə qarşı məsuliyyət hissini, həvəsini izləyə-izləyə böyüyürdüm. Getdikcə hiss edirdim ki, foto sahəsinə marağım artır. Bu işlə məşğul olmaq çox xoşuma gəlirdi və o qədər həvəsli idim ki, günlərlə şəkil çəkmək istəyirdim...

### Fotoqraflıq filoloqluğa üstün gəlirdi...

- Qardaşım Tofiqlə əkizəm. Biz birinci sinfə gedəndə atam Bakıda yox idi, səfərə getmişdi. Anam bizi rus bölməsində oxumağa qoydu. Atam qayıdıb gələndə bunu öyrəndi və çox narazılıq etdi. Birinci sinfi bitirdik və ikinci sinfə getməyə hazırlaşanda o, bizi çıxarıb yenidən Azərbaycan bölməsinin birinci sinfinə qoydu. Dedi ki, əvvəlcə ana dilimizi bilsinlər, sonra lazım gəlsə, rus dilini də öyrənərlər. Öz ana dilini, vətənini, millətini hər şeydən çox sevirdi.

Orta məktəbi əla qiymətlərlə oxuyub bitirdim. Elə həmin il dövlət televiziyasının kino lentlərinin aşkarlaması sexində kino istehsalı ilə məşğul olan şöbədə fəhlə kimi işə düzəldim. Burada da iş fotolarla bağlı olduğu üçün həvəslə çalışırdım. Kino, foto sənətinə olan marağım və zəhmətim sayəsində çox az müddətdə kiçik işçidən böyük bir sexin rəisi vəzifəsinə qədər yüksəldim. Paralel olaraq ali təhsil də aldım, Azərbaycan Dövlət Universitetinin (BDU) Filologiya fakültəsini bitirdim. Amma fotoqraflığa olan istəyim hər şeydən üstün idi. Daim üzərimdə işləyir, foto sənətini öyrənirdim.

Sanki özüm də bilmədən, hansısa böyük və çətin bir imtahana hazırlaşırdım. Elə bil hiss etmişdim ki, gələcək taleyim məhz foto sənəti ilə bağlı olacaq. Çalışırdım ən müasir fotoaparatları, ləvazimatları əldə edim və buna da nail olurdum. O zaman məndə bu sahə üzrə olan texnika Azərbaycanda heç bir idarədə yox idi. Ancaq bütün bunlara baxmayaraq, özümü professional fotoqraf hesab etmirdim, düşünürdüm ki, sadəcə həvəskaram...



...Heydər Əliyev növbəti dəfə baba olmuşdu. Hədsiz sevinc içərisində idi. Bakıya dönərkən yolüstü Londonda dayandı və yeni doğulmuş körpənin olduğu klinikaya gəldi. Nəvəsini ona təqdim edəndə gözləri yaşardı, çox təntənəli, yüksək, bir qədər də kövrək səslə dedi: “Mən bu uşağın adını Heydər qoyuram”. Həmin anlarda çox təsirli şəkillər çəkdim...

### Taleyimin dəyişdiyi o gün...

- 1993-cü ilin iyul ayı idi. Prezident səlahiyyətlərini həyata keçirən Heydər Əliyevin şəkillərini çəkmək lazım idi. İlk günlər başqa fotoqraflar tərəfindən çəkilən şəkillər Heydər Əliyevin xoşuna gəlməmişdi. Bu vaxt mənə də dəvət gəldi. Əvvəlcə etiraz etdim, dediyim kimi, özümü professional fotoqraf saymırdım və hesab etdim ki, Heydər Əliyev kimi nəhəng bir insanın portretini çəkmək kimi məsuliyyətli işi bacara bilmərəm. Amma ən müasir aparatura məndə olduğu üçün son anda razılaşdım. Yenə də özümə tam güvənmədiyim üçün çəkilişə o zaman məşhur olan bir fotoqrafla bərabər getdim.

Heydər Əliyevlə ilk dəfə onun iş otağında - Milli Məclis Sədrinin kabinetində görüşdük. Xeyli foto çəkdik və lentləri aşkarlamağa apardıq. O dövrdə bu proses çox çətin idi. Lent müxtəlif məhlullardan keçirdi, axırda quruyub çıxanda görürdün ki, şəkil çıxıb, yaxud yanıb. Bu lentləri də aşkarlayanda məlum oldu ki, mənimlə bərabər Heydər Əliyevin şəkillərini çəkən fotoqrafın şəkillərinin heç biri alınmayıb. Lentin birinə işıq düşmüşdü, birində rənglər qarışmışdı, digərində isə kadrlar bir-birinin üstündəydi. Çox dilxor oldum, artıq hər şey məndən asılı idi. Üç plyonka çəkmişdim, orada 100-dən yuxarı şəkil var idi. Gətirdim, qorxa-qorxa aşkarladım. Amma baxdım ki, normaldır. Bir müddətdən sonra bir neçə hazır fotonu Heydər Əliyevə təqdim etdim. Bütün şəkillərə diqqətlə baxdıqdan sonra əksəriyyətini bəyəndi. Və son sözünü özünəxas tonda dedi: “Sən mənimlə işləyəcəksən”. Bir anlığa duruxdum, qeyri-ixtiyari “axı mən başqa yerdə işləyirəm” dedim. Üzümə diqqətlə baxaraq bir az yüksək tonda sözünü yenidən təkrarladı: “Sən mənimlə işləyəcəksən!”



Özümü Heydər Əliyevin foto sənətindəki kadrı sayıram

Heydər Əliyev Prezident seçildikdən sonra əmr imzaladı və mən Prezident Aparatında mətbuat xidmətinə məsləhətçi kimi işə qəbul olundum. Həmin zamana qədər aparatda belə bir ştat olmamışdı, bu, məhz mənim üçün açıldı...

Beləliklə, tale mənim üzümə güldü və yolum dahi bir şəxsiyyətlə çarpazlaşdı, 10 il sərasər onunla bir yerdə işlədim, səfərlərdə oldum, ondan öyrəndim, ondan nümunə götürdüm...





10 il Ulu Öndər Heydər Əliyevin, 3 il isə Prezident İlham Əliyevin şəxsi fotoqrafı kimi çalışmışam

### Heydər Əliyev bütün bağlı qapıları açmaq gücündə idi

- Cavanlığımdan səyahət etməyi xoşlayırdım. Müxtəlif ölkələrə yollanır, orada diqqətimi çəkən obyektlərin fotolarını çəkirdim. Yəni Heydər Əliyevin şəxsi fotoqrafı olana qədər də çox ölkələrdə olmuşdum. Və təsadüf də elə gətirdi ki, yenə də mənə dünyanın yarısını gəzmək qismət oldu. 10 il ərzində Heydər Əliyevlə bərabər dünyanın 100-ə yaxın ölkəsini gəzmişəm, hətta elə ölkə var ki 15, eləsi var ki 20 dəfə orada olmuşam.

Təsəvvür edin ki, dünyanın ən nəhəng dövlət başçılarının saraylarında, kabinetlərində olmuşam. ABŞ, İngiltərə, Fransa, İtaliya, İspaniya, Çin və daha neçə ölkələrin ən məşhur ünvanlarını gəzmişəm...

Heydər Əliyev fəaliyyəti müddətində xarici dövlət və hökumət başçıları, həmçinin dünya siyasətini müəyyənləşdirən görkəmli dövlət xadimləri ilə minlərlə görüş keçirib. Bütün danışıqlarda təşəbbüskarlıq, söhbətin istiqamətini müəyyənləşdirmək imkanı həmişə Heydər Əliyevdə olurdu. Hamı onun təcrübəsi, nüfuzu ilə hesablaşırdı. Dünyanın fövqəldövlətlərinin rəhbərləri, ən nüfuzlu beynəlxalq təşkilatların başçıları ilə görüşləri gözlərimin önündən indi kino lenti kimi keçir.

Belə səfərlər fərqli təəssüratlar yaradır. Biri var turist kimi gedib tutaq ki, Yaponiyanı görəsən, biri də var dövlət başçısı ilə ora səfər edəsən. Bax bu möhtəşəm və ehtişamlı olur. Həm Ulu Öndərlə, həm də cənab Prezident İlham Əliyevlə Yaponiyaya səfərə gedəndə İmperator sarayında olmuşam. Hətta sadə yaponların özü üçün belə İmperator sarayında olmaq əlçatmaz arzudur. Yadda qalan xatirələrimdən biri də yenə də hər iki Prezidentlə Səudiyyə Ərəbistanına səfərimiz olub. Biz Kəbənin içərisinə girib ziyarət etmişik. Bu, ancaq sayılıb-seçilən adamlara icazə verilir. Heydər Əliyevin nüfuzuna olan hörməti bütün xarici ölkələrdə gördüm. Bu ehtirama görə Heydər Əliyevə hər cür müsbət istisnalar edirdilər. Heydər Əliyev bütün bağlı qapıları açmaq gücündə idi.

Bu cür unudulmaz anlarım çox olub. Bütün bunlar isə Heydər Əliyev sayəsində, onunla işlədiyim üçün mənə nəsib olub. Prezidentin şəxsi fotoqrafı olmağın mənim üçün bu cür ağlasığmaz dərəcədə gözəl anları, üstünlükləri olub...



### Heydər Əliyevin əsəbindən məni səmimiyyətim xilas etdi

- Bununla yanaşı, Prezidentin şəxsi fotoqrafı olmağın məsuliyyəti də olduqca böyükdür. Dövlət başçılarının rəsmi görüşünü tək çəkirsən, həmin kadrlar qəzetlərə, jurnallara verilməlidir, bütün məsuliyyət sənin üzərindədir. Bir anlıq təsəvvür edin ki, həmin fotolar alınmayıb... O dövrdə çəkilişlər lentlə idi. Həmin lentləri ovcumun içində, cibimdə saxlayırdım, hər dəqiqə yoxlayırdım ki, yerindədirmi? Lent itsə, hər şey çox pis olardı...

İndi foto çəkmək çox asanlaşıb. Dərhal aparatda baxa bilirsən ki, foto necə çıxıb. O zaman elə deyildi. Bir də görürdün işığı çox, ya az vermisən, yaxud rakursu düzgün götürməmisən. Həcc ziyarətində gecə foto çəkmək lazım gəldi, bu isə çətin idi. Gərək elə rejim seçə idin ki, həm arxadakı minarələr düşsün, həm maraqlandığın adamın üzü. Həmin səfərdə elə şəkillər çəkmişdilər ki, hər yer qaranlıq idi, bircə üz görsənirdi. Amma xoşbəxtlikdən mən çəkdiyim şəkildə arxa fon belə aydın düşmüşdü. Bu cür çəkməyi bacarmaq üçün daim üzərində işləmək lazım idi...

Respublikada ilk rəngli şəkil çıxaranlardan biri də mən olmuşam. Bu çox çətin idi, 4 müxtəlif prosesdən keçməli idi. 8 saata 4-5 yaxşı şəkil çıxara bilərdin. Daim çalışırdım, üzərimdə işləyirdim ki, bu sahədə ən yüksək səviyyəyə çatım. O zaman həm də fotoşəkil çıxarmaq ancaq lent vasitəsilə olurdu, kompüter yox idi. İndi isə hansısa qəzetə, jurnala, sərgiyə verdiyin şəkil düşür internetə və o zaman sən müəllif hüququnu tələb edə bilmirsən, kiməsə sübut edə bilmirsən ki, bu kadrları sən çəkmisən.

Bir dəfə də Prezidentin göstərişini müəyyən texniki problemlər baxımından bir neçə gün gecikdirdim. Xəbər verdilər ki, Heydər Əliyev səni təcili yanına çağırır, özü də yaman əsəbidir. Tapşırığı cəmi 10-15 dəqiqə ərzində yerinə yetirərək Prezidentin kabinetinə daxil oldum. Yaman əsəbiləşmişdi. Heç göstərişinin icrasına baxmadan əsəbi səslə soruşdu: “Tapşırığı nə vaxt yerinə yetirmisən?” Bir anlıq düşündüm ki, bağışlanması çətin olan səhvə yol vermişəm və gərginliyi yumşaltmaq üçün həqiqəti gizlədə də bilərəm. Ancaq anladım ki, qarşımdakı Heydər Əliyevdir. Həqiqəti dedim: “15 dəqiqə əvvəl”. Ani fikrə getdi və dedi: “Bir də səhlənkarlıq etmə. Sonuncu dəfə olsun”. Bu çətin söhbətdən sonra anladım ki, məni yalnız səmimiyyətim xilas etdi...

### Fotolar tarixi sənəddir

- Heydər Əliyevin foto ilə bağlı həm tələbi yüksək idi, həm də zövqü daim müasir və konkret olurdu. O, hər səfərindən, görüşündən, hətta istirahətindən sonra da çəkilən



Son sözünü özünəxas tonda dedi: “Sən mənimlə işləyəcəksən”. Bir anlığa duruxdum, qeyri-ixtiyari “axı mən başqa yerdə işləyirəm” dedim. Üzümə diqqətlə baxaraq bir az yüksək tonda sözünü yenidən təkrarladı: “Sən mənimlə işləyəcəksən!”

şəkillərə diqqətlə baxır, onları təhlil edir və müvafiq tövsiyələrini verirdi. Mən ilk vaxtlar çox düşünürdüm ki, Heydər Əliyevin fotoya belə xüsusi münasibətinin səbəbi nədir? Səbəbini sonralar özüm üçün aydınlaşdırdım. Prezident həmişə şəkillərə tarixi sənəd kimi baxırdı və buna görə də onların bütün dövrlər üçün aktual, zövqlü olmasına xüsusi əhəmiyyət verirdi.

Bir dəfə İngiltərədən fotoqraflar Heydər Əliyevin şəklini çəkməyə gəlmişdilər. Mən də orada iştirak edirdim. Amma onlar narazılıq etdilər ki, biz istəyirik başqa fotoqraf olmasın, ancaq özümüz çəkək. Heydər Əliyev isə dedi ki, “mənim fotoqrafım da çəkəcək. İstəmirsinizsə gedə bilərsiniz”. Beləliklə, mən də fotolar çəkdim. Üzərindən 3-4 ay keçəndən sonra zəng etdilər ki, Prezident səni çağırır. Qalxdım otağa, gördüm ki, burada çox adam var. İngilis fotoqrafların çəkdikləri şəkillərə baxırlar. Prezident şəkillər barədə mənim də fikrimi soruşdu. Şəkillərin üzərini o qədər təmizləmişdilər ki, bütün cizgilər itmişdi. Bu barədə fikrimi söylədim və Prezident də dedi ki, görürsünüz, mən deyəni deyir...

Məşhur bir kadr var, Heydər Əliyev əlini neftə bulayıb üzünə çəkir. Baxmayaraq ki, həmin zaman orada 30-40-a yaxın fotoqraf var idi, o şəkli təkcə mən çəkmişəm. Onda İngiltərə şirkəti də öz fotolarını çəkmək üçün ingilis fotoqraf çağırmışdı. Heydər Əliyevin əlini neftə bulayıb üzünə çəkdiyi anda həmin fotoqraf qız qaçdı qabağa ki çəksin və bu zaman bütün fotoqrafların obyektivini bağladı. Qeyri-ixtiyari dərhal fotoaparatı başımın üzərinə qaldırıb düyməsini basdım. Xoşbəxtlikdən kadr çox yaxşı alınmışdı. Sonradan həmin qızın kadrlarına da baxdım, heç onda da alınmamışdı. Ona görə də bu qiymətli kadr təkcə mənə məxsus oldu...

### Foto sənətindəki müəllimim

- Ümumiyyətlə, mən özümü Heydər Əliyevin foto sənətindəki kadrı sayıram. Bəli, Heydər Əliyev mənim müəllimim idi. O, foto ilə bağlı bütün incəlikləri bilirdi, məni yeniliklərə - yeni yanaşmaya sövq edirdi. Heydər Əliyevin şəxsi fotoqrafı daim öyrənməli idi, başqa cür mümkün deyildi. 1998-ci ildə Prezident mənə təxminən 8 saat vaxt ayırdı ki, portretlərini çəkim. Kostyumda, frakda və s. Çəkdim və demək olar ki, fotoların hamısı da yaxşı alındı. Portret çəkmək çox çətindir, işığı düzgün qurmaq lazımdır. Həmin portretləri çəkməzdən əvvəl bir neçə gün bununla bağlı kitablar oxudum, öyrəndim. Bax bu da mənə kömək etdi və portretlərin hamısı yaxşı alındı.

Bir dəfə Heydər Əliyev mənə dedi ki, “yaxşı, mənimlə hər yerdə olursan, bu qədər şəkil çəkirsən. Səndə heç sadə şəkillərim yoxdur?” Dedim ki, var və elə sizdən icazə almaq istəyirdim...

Ulu Öndərin qalstuksuz, ailəsi ilə bir yerdə olan sadə şəkillərini də çox çəkmişəm. İllər öncə “Azərbaycan” qəzetinin baş redaktoru Bəxtiyar Sadıqovla bərabər həmin şəkillərdən ibarət “Ömrün sadə anları” adlı bir kitab da nəşr etdirdik. Çox nəfis, Heydər Əliyevə layiq bir kitab alınmışdı.

### Hərəsi bir xatirə fotolar...

- Ötənləri düşünəndə yüzlərlə xoş xatirələr düşür yadıma. Yaddaşımı vərəqlədikcə görürəm ki, ən xoşbəxt, ən sevincli, ən kədərli fotolarım da məhz o illərdə çəkdiklərim olub. 1997-ci ilin avqust ayı idi. Prezident ABŞ-da rəsmi səfərdə idi. Bill Klintonla görüşdən sonra Hyustona gəldik. Və burada olanda şad xəbər aldıq: Heydər Əliyev növbəti dəfə baba olmuşdu. Prezident hədsiz sevinc içərisində idi. O, Bakıya dönərkən yolüstü Londonda dayandı və yeni doğulmuş körpənin olduğu klinikaya gəldi. Nəvəsini ona təqdim edəndə gözləri yaşardı, çox təntənəli, yüksək, bir qədər də kövrək səslə dedi: “Mən bu uşağın adını Heydər qoyuram”. Həmin anlarda çox təsirli şəkillər çəkdim...



2003-cü ilin 31 oktyabrında cənab İlham Əliyevin Prezident kimi andiçmə mərasimindən çəkdiyim şəkillər də tariximizin ən şərəfli anlarının dəyərli şəkilləridir.

Mən çox az insanın gördüyü məqamların -2003-cü il aprelin 22-dən iyulun 8-dək, Prezidentin tibbi müayinədən keçmək üçün Ankaraya getdiyi günə qədər nə cür işlədiyinin şahidiyəm. Hamımız onun səhhəti ilə bağlı narahatlıq keçirirdik, istəyirdik ki, Prezident heç olmasa bir müddət istirahətə getsin, özünü, səhhətini qorusun. Ancaq Heydər Əliyev bu narahatlıqları müşahidə edərək deyirdi ki, hələ tamamlanmamış işlər çoxdur, xalq məni dincəlmək üçün seçməyib, işləmək üçün seçib, Azərbaycanın problemləri qala-qala mənim öz qayğıma qalmağa haqqım çatmır. Belə fədakar azərbaycanlı idi Heydər Əliyev...

Təəssüf ki, tale Heydər Əliyev kimi misilsiz bir insanın son kadrlarını da çəkməyi qismətimə yazmışdı. İyulun 8-də Ankarada təyyarə trapından düşəndə onun şəkillərini çəkdim. Yenə də gülərüz və şux idi. Bu fotolar Ulu Öndərin çəkilən son şəkilləri idi...

### Mən bütün bu şərəfli anların şahidiyəm

- Heydər Əliyevin gündəlik təqvimi çox gərgin idi. Nadir adamlardan idi ki, hətta 12-13-14 saat da işləyə bilirdi. Demək olar ki, onunla işlədiyim 10 il ərzində nə şənbəmiz olub, nə bazarımız. Ulu Öndər hər gün işə çıxırdı, çox nadir hallarda evdə istirahət edirdi. Axşam saat 8-dən, 9-dan tez evə getmirdi. O dövr elə çətin və mürəkkəb idi ki, daim çalışırdı. Öz istirahəti barədə heç zaman düşünmürdü, amma hər zaman bizə deyirdi ki, siz niyə gedib dincəlmirsiniz? Çox humanist adam idi, hər bir işçisi diqqətində idi...

Səfərlərdə onu müşayiət edən heyətin hər bir üzvünün gecələdiyi hotelin vəziyyəti, onların istirahəti, qidası ilə daim, özü də diqqətlə maraqlanırdı. Səfər müddətində nümayəndə heyətinin hətta ən kiçik ranqlı texniki işçisi də Heydər Əliyevin qayğısını görürdü.



Məşhur kadr var, Heydər Əliyev əlini neftə bulayıb üzünə çəkir. Baxmayaraq ki, həmin zaman orada 30-40-a yaxın fotoqraf var idi, o şəkli təkcə mən çəkmişəm.

Bir insan olaraq nə qədər tam və bitkin idisə, davranışlarında, rəftarında, fəaliyyətində də bir o qədər əhatəli və səmimi idi. Prezident xarakter etibarilə ciddi olduğu qədər də zarafatcıl idi. Onun zarafatları, kinayələri olduqca mənalı, məntiqli olub. Heydər Əliyevin qəhqəhə çəkərək ucadan gülməsini isə çox az adam görüb. Prezidentin kədərli çöhrəsindəki göz yaşları da şəxsi fotoarxivimdə yetərincədir. Zərifə xanımın məzarını, eləcə də Şəhidlər xiyabanını ziyarət zamanı adətən Heydər Əliyevin gözləri dolurdu. Prezidentin sevinc göz yaşları isə daha çoxdur. “Əsrin müqaviləsi”nin imzalanması, Bakı-Tbilisi- Ceyhan neft kəmərinin təməlinin qoyulması mərasimində, eləcə də ordu birləşmələri ilə tanış olarkən və onların hərbi təlimlərini görərkən Heydər Əliyevin çəkilən şəkillərində onun qürur və fəxarətdən doğan sevinc göz yaşlarını görmək olar...

Mən bütün bu şərəfli anların şahidiyəm. İstəyirəm həmin anlarla bağlı xatirələrimi qələmə alım, kitab şəklində çap etdirim.

Həmçinin Ulu Öndərin doğum, ya da anım günü ərəfəsində fotolarından ibarət böyük bir sərgi keçirməyi planlaşdırıram. Heydər Əliyevin məndə elə şəkilləri var ki, hələ işıq üzü görməyib. Ulu Öndər elə bir şəxsiyyət olub ki, o, dünya var olduqca nəhəng bir şəxsiyyət kimi hər zaman tarixdə qalacaq. Mən də istəyirəm ki, bu uca şəxsiyyətə heç olmasa kiçik bir töhfəmi verim, onun ruhu qarşısında minnətdarlıq edim.

İndi Heydər Əliyevin çəkdiyim portretləri bütün respublikada, kitablarda, qəzetlərdə, jurnallarda, saytlarda, rayonlardakı Heydər Əliyev adına mərkəzlərdə, daha saymadığım yüzlərlə məkanda istifadə olunur.

Bilirsiniz, bu necə sevindiricidir, necə xoşbəxtlikdir... Hara gedirsənsə, kimin kabinetinə daxil olursansa, öz çəkdiyin portretlərlə rastlaşırsan. Bu mənə qürur verir, öz yaradıcılığımla fərəhlənirəm. Bax buna görə də hər zaman Ulu Öndərə rəhmət oxuyuram. Onun etimadını doğrultdum, onun sayəsində bu zirvəyə çatdım...



Heydər Əliyev həmişə şəkillərə tarixi sənəd kimi baxırdı və buna görə də onların bütün dövrlər üçün aktual, zövqlü olmasına xüsusi əhəmiyyət verirdi

### Fövtə verilməyən ömür

- İndi təqaüddəyəm. Yenə də dünyanı gəzməyə çıxıram. Görmədiyim yerlərə gedirəm. Fotoaparatım da daim yanımdadır, müxtəlif şəkillər çəkirəm, anları yaddaşa köçürürəm. Amma budəfəki səfərlərim tamam fərqlidir. Daha o ehtişam, möhtəşəmlik yoxdur. Fotolarımı gözləyən, axtaran, bununla bağlı keçirdiyim o xoş həyəcan hissi yoxdur...

Düşünürəm ki, o zaman həyat qarşıma Heydər Əliyevi çıxarmasaydı, televiziyada işləməyə davam edəcəkdim və həmin laboratoriya bağlandıqdan sonra mən hansısa başqa bir sahəyə yönələcəkdim. Vurğunu olduğum foto sənətində bu qədər yüksələ biləcəkdimmi?! Bu gün Azərbaycanda üzümü hara tutsam, hansı ünvana qədəm qoysam, əməyimin bəhrəsi, şah əsərlərimlə qarşılaşa biləcəkdimmi?! Yenədəmi çəkdiyim fotoların hər birinin arxasından minlərlə xatirə canlanacaqdı, bir andaca sevinəcəkdim, xoşbəxt olacaqdım, qüssələnəcəkdim?!

İndi əminliklə deyirəm ki, ömrümü fövtə verməmişəm, sevdiyim sənətdə öz sözümü deməyi bacarmışam. Yalnız təəssüfləndiyim bir məqam var, heyf ki, bu uğurlarımı cəmi 52 il ömür yaşayan atama görmək qismət olmadı...



Bu da bir ömür yoludur, yaşayırsan, yaradırsan, həyatın dolanbaclarında özünəməxsus cığır salmağa çalışırsan. Bu günündən dünəninə boylananda öz izini axtarmağa çalışırsan. Və buna nail olanda sən dünyanın xoşbəxti olursan, demək bu həyatda xatırlanacaq, yad olunacaq nə isə etmisən, nəyəsə imza atmısan...

Ömrünün on üç ilini iki Prezidentin şəxsi fotoqrafı kimi keçirmiş həmsöhbətimiz Rafiq Bağırov da tarixə öz töhfəsini verənlərdən oldu - Azərbaycanın ən qüdrətli dövrlərinin fotosalnaməsini yaradaraq...

***Yasəmən MUSAYEVA, “Azərbaycan”***






# Gənclik






● Gələcəyə dəstək




# Yeni hədəflərə və çağırışlara doğru...

**Heç də əbəs yerə deməyiblər ki, gələcək gəncliyindir. Çünki hər bir xalqın taleyi onun gələcək nəsillərindən daha çox asılı olur. Gənclik güc-qüvvə, enerji deməkdir. Gənclik ümiddir, inamdır! Gənclik bugün və sabahdır! Ona görə də gənclərin dünyagörüşlü, intellektual baxımdan yetkin, milli hissli, bəşəri duyğulu böyüməsi olduqca vacib amillərdəndir. Məhz bu baxımdan hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini ilk növbədə gənc nəslə bağlayır.**



Gənclərə qayğı yürüdülən dövlət siyasətinin prioritetlərindəndir. Son illər ölkə gənclərinin istər istehsalatda, istərsə də idman və ya mədəniyyət sahəsindəki uğurları daha çox diqqət çəkməkdədir. Bütün bunlar isə bir daha təsdiqləyir ki, Azərbaycan vətənpərvər və istedadlılar ölkəsidir. Bu həm də əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasətinin real bəhrəsidir. Ümummilli Liderin təşəbbüsü ilə hələ sovetlər birliyi dövründə Azərbaycan gəncliyinin inkişafı istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər görülür, milli dəyərlərə və tarixi-mədəni irsə bağlı gənc nəslin formalaşdırılmasına başlanmışdı.

Bu günlərdə Bakıda keçirilən Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşündə Azərbaycan Prezidenti İlham Əliyev xüsusi olaraq vurğulamışdı ki, *"Azərbaycan 2018-ci ildən etibarən Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşlarına ölkəmizin ali məktəblərində təhsil almaq məqsədilə tam ödənişli təqaüdlər verir. Bu gün 31 üzv dövlətdən 37 gənc bu proqramdan faydalanır. Azərbaycanda gənclər siyasəti prioritet sahə kimi müəyyən edilmişdir. Azərbaycan gəncləri milli ruhda, ənənəvi dəyərlərlə, Vətənə bağlı və vətənpərvər ruhda tərbiyə alırlar. Buna görədir ki, Qoşulmama Hərəkatı tarixində ilk dəfə olaraq Gənclər sammitinin keçirilməsi təşəbbüsü ilə çıxış etmişik. Hazırkı Zirvə görüşü ərəfəsində keçirilmiş Gənclər sammitində 40 dövlətdən ölkəmizə gəlmiş gənclər iştirak etmişlər".*

Bu gün Azərbaycan gəncliyinin hərtərəfli bilik almasına, elmin yüksək zirvələrini fəth etməsinə hər cür şərait yaradılıb. O da danılmaz faktdır ki, ölkəmizdə gənclərə yüksək qayğı var. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu gənclər siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə, müasir dövrün tələblərinə uyğun davam etdirilməsi yeni nəslin hərtərəfli fəaliyyətinə geniş imkanlar yaradıb.

Dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin gələcək inkişafında dərin izlər buraxıb. MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Gənclər günü Azərbaycanda təntənəli şəkildə qeyd edilməyə başlanıb.

Ümummilli Lider Heydər Əliyev dövlət gənclər siyasətinin uğurla həyata keçirilməsi məqsədilə bütün dünyaya nümunə olacaq daha bir addım ataraq, bu sahənin zəruri qanunvericilik bazasının formalaşdırılmasını təmin edib. Gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönəlmiş, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək edən fərman və sərəncamlar, dövlət proqramları bu qəbildəndir. Həmin sənədlər gənc nəslin mütəşəkkil qüvvə kimi formalaşmasına, onların mənəvi-ideoloji cəhətdən tam yetkinləşməsinə, sosial problemlərinin həllinə, faydalı məşğulluğunun təmin olunmasına son dərəcə müsbət təsir göstərib.

Ulu Öndərin gənclərə etimadı bu gün artıq öz təsdiqini tapmaqdadır: ölkədə gənclər siyasəti mahiyyət və keyfiyyətcə yeni mərhələsini yaşayır. Prezident İlham Əliyev Ulu Öndərin gənclər siyasətinə sadiqliyini öz qərarları ilə təmin edir. Gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində həyata keçirilən layihələr, gənclər təşkilatlarının formalaşması, inkişafına yaradılan şərait və imkan bu sahəyə böyük diqqətin nəticəsidir.

Ölkəmizdə gənclərin məşğulluğunun təmin olunması da diqqət mərkəzində saxlanılır. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən gənclərin istedad və bacarıqlarının üzə çıxarılması istiqamətində həyata keçirilən layihələr yetişməkdə olan nəslin gələcəyinin etibarlı təminatçısına çevrilib. Həmçinin Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə xaricdə və ölkəmizdə reallaşan layihələr Azərbaycanın uğurlarının təbliğində, gənclərimizin fəallığının artırılmasında və onların fəaliyyətlərinin əlaqələndirilməsində mühüm rol oynayır.

Sosial həyatın bütün sferalarına nəzər salsaq, orada gənclərin əksəriyyət təşkil etdiyinin şahidi olarıq. Əlbəttə, bunlar Prezident İlham Əliyevin gənc kadrların irəli çəkilməsi ilə bağlı qarşıya qoyduğu vəzifənin reallaşmasının nəticəsidir. Dövlət başçısı İlham Əliyev gənclərə inandığını və onlara arxalandığını belə ifadə edir: "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram".

Onu da xatırladaq ki, dövlət başçısının 2007-ci il 16 aprel tarixli sərəncamı ilə təsdiq edilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil üzrə Dövlət Proqramı" onların xaricdə təhsilinə geniş imkanlar yaradıb. Bu proqram çərçivəsində minlərlə gənc dünyanın ən nüfuzlu təhsil ocaqlarında elmi nailiyyətlərə yiyələnir.

Azərbaycan gənclərinin sağlam böyüməsində mühüm məsələ olan idmanın inkişaf etdirilməsinə və onun kütləviliyinin artırılmasına xüsusi diqqət yetirilir. Prezident İlham Əliyevin mətin iradəsi və böyük səyləri nəticəsində Azərbaycan dünyanın qabaqcıl idman ölkələrindən birinə çevrilib. Bu gün ölkəmizdə 43 Olimpiya İdman Kompleksinin fəaliyyət göstərməsi, Azərbaycanın nüfuzlu beynəlxalq idman yarışlarına evsahibliyi etməsi, idmançılarımızın Olimpiya və dünya çempionatlarında uğurlu çıxışları da bunun təsdiqidir. Beynəlxalq yarışlarda qələbə qazanan gənc idmançıların layiqincə qiymətləndirilməsi isə onların yeni uğurlar qazanmasında mühüm rol oynayır.

Bu gün qətiyyətlə demək olar ki, dövlətin biz gənclərə qayğısı yeni mərhələyə qədəm qoyub. Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli təbəqə kimi iştirakının təmin olunması, milli adət-ənənələrə, saf dəyərlərə bağlılığı üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir.

Müasir dövrdə elmin və texnologiyanın sürətli inkişafı Azərbaycan dövlətinin də gənclərlə bağlı zamanın tələblərinə uyğun siyasət yürütməsini zəruri edib. Bunu nəzərə alan dövlət başçısı gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədilə 2015-ci il yanvarın 26-da "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb. Prezident İlham Əliyev gənclərimizin dini ekstremizm, separatizm, beynəlxalq terrorizm kimi təhlükəli, zərərli təsirin altına düşməsinin qarşısını alan yeni iş metodlarının tətbiqi zərurəti ilə əlaqədar "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının təsdiq olunmasına dair sərəncamını da xatırlamaq yerinə düşərdi.

Yeri gəlmişkən bir məsələni də qeyd edim ki, son vaxtlar bir qrup təxribatçının Bakı küçələrinə məcburən çıxarılması özlərini radikal müxalifət adlandıranların baş tutmayan avantürasından savayı bir şey deyildi. Saxta və avantürist çığır-bağırla özlərini rüsvay edənlərin Azərbaycan gəncliyinə qətiyyən aidiyyəti yoxdur. Vətənini, xalqını, müstəqil dövlətini sevən kəs o cür layiqsiz, küçə söyüşləri ilə (çünki fakt olmayanda, məcbur olub həqarətlə təhqirə keçmək onların köhnə adətləridir) xalqı, onlara qoşulmayanları xəyanətdə suçlamaz. Onlar Azərbaycanın hərtərəfli inkişafını istəməyən antiazərbaycançı şəbəkənin vassalları, siyasi mübarizə aparmağı bacarmayan müxalifətin törtöküntüləridirlər.

Azərbaycanın dünya birliyində öz layiqli yerini tutması yolunda görüləcək işlər hələ çoxdur. XXI əsrdə müstəqil Azərbaycanın inkişafı naminə aparılacaq bu əzəmətli işlərin həyata keçirilməsinin əsas ağırlığı bugünkü gənclərin üzərinə düşür. Gənclər isə özlərinin potensialına güvənərək ən məsuliyyətli sahələrdə bilik və bacarıqlarını əsirgəməyərək, Vətənin əsl övladları olduqlarını təsdiqləyirlər. Münasibətlər qarşılıqlı olanda səmərəsi də müvəffəqiyyət gətirər.

***Əsmər NƏBİYEVA,***
***YAP Yasamal rayon Gənclər Birliyinin sədr müavini***

● Sağlam həyat naminə

# İradənlə qalib gəl!

**9 Noyabr - Bayraq Günü münasibətilə Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə 1 noyabr tarixindən başlayaraq gənclərin iştirakı ilə "İradənlə qalib gəl!" şüarı altında çoxsaylı aksiyalara start verilib.**

Bu sırada 1-2 noyabr tarixlərində Gənclər və İdman Nazirliyinin tabeliyində olan 34 Olimpiya İdman Kompleksində (OİK) "Açıq qapı" günləri təşkil olunub. Bu aksiyanın məqsədi gəncləri idmana cəlb etmək, hər kəs üçün OİK-ləri əlçatan etmək, komplekslərdə idman meydançaları, avadanlıqlar və yaradılan imkanlarla gəncləri tanış etməkdir, onları sağlam həyat naminə idman oyunları və hərəkətlərini etməyə alışdırmaqdır. Yeni nəsil öz sağlamlığına böyük diqqət göstərir. Onlar asudə vaxtlarını bədən tərbiyəsi, fitnes, yoqa, üzgüçülük, futbol və rəqslərin öyrənilməsinə sərf etməkdə maraqlıdırlar. Gənclər fiziki sağlamlığı "məsuliyyətli vətəndaşlıq - uğurlu dövlət" birliyinin vacib hissəsi kimi dəyərləndirirlər. Rayonlarda gənclərin həmin aksiyada iştiraka dəvəti gənclər və idman idarələri, sosial şəbəkələr, könüllülər vasitəsilə aparılır. Aksiya çərçivəsində futbol, voleybol, güləşin müxtəlif növləri, yüngül atletika, tennis, badminton, şahmat və s. yarışlar və əyləncəli idman oyunları təşkil edilib. Bu yarışlar OİK-də işləyən məşqçilər tərəfindən idarə olunub. Eyni zamanda hər rayonda müxtəlif idman növləri üzrə Avropa və dünya çempionları və mükafatçılarının, beynəlxalq dərəcəli hakim və idmançıların iştirakı ilə ustad dərsləri, nümunəvi çıxışlar, yarışlar keçirilib.



Azərbaycan gəncləri, iradəniz qalib gəlsin!

***"Azərbaycan"***

● Söz gənclərindir

# Ulu Öndərin siyasətinə sədaqət Naxçıvanı başdan-başa dəyişib

**Günbəgün gözəlləşən, tarixin canlı salnaməsinə çevrilən ulu diyarımızı müstəqillik illərindən əvvəlki dövrü ilə müqayisə edəndə sanki bir möcüzə ilə qarşılaşırsan. Ulu Öndər siyasətinə sədaqət, xalqa, millətə məhəbbət Naxçıvanı başdan-başa dəyişib, hüsnünə insan əllərinin qüdrətindən naxışlar vurulub. İnsan zəkası və dövlət qayğısı ilə inkişaf edən Naxçıvan Muxtar Respublikasının Babək rayonu da digər rayonlarımız kimi inkişaf edir, böyüyür, abadlaşır.**

1978-ci il oktyabrın 23-də təşkil olunmuş rayona xalq qəhrəmanı Babəkin adının verilməsi Ulu Öndərin qətiyyətinin daim azərbaycançılıq mövqeyində dayanması istiqamətində həyata keçirdiyi tədbirlərin nəticəsi idi. Sevindirici haldır ki, Ümummilli Liderin qayğısı ilə yaradılan Babək rayonunda aparılan abadlıq, yenidənqurma, tikinti-quruculuq işləri buranın simasını tamamilə dəyişmişdir. Bunu rayona yolu düşən hər kəs təsdiq edə bilər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov isə demişdir: "Bu gün ölkəmizin bütün guşələrində Heydər Əliyevin nişanələri, yadigarları vardır. Onlardan biri də xalqımızın böyük oğlunun himayəsi ilə təşkil olunan Naxçıvan Muxtar Respublikasının Babək rayonudur".

2018-ci ilin oktyabrında Babək rayonunun yaradılmasının 40 illiyi tamam oldu. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 16 fevral 2018-ci il tarixdə rayonun 40 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalamışdı. Sərəncam rayonun gəncləri tərəfindən də böyük rəğbətlə qarşılanmışdı.

Böyük maarifpərvər ziyalı Həsən bəy Zərdabi vaxtilə demişdir: "Hər bir yerin qəzeti gərək o yerin ayinəsi olsun". Rayonda fəaliyyət göstərən "Şərqin səhəri" qəzeti də öz funksiyasını lazımi şəkildə yerinə yetirir.

**Muxtar RZAZADƏ,**
*"Şərqin səhəri" qəzetinin baş redaktoru:*

- Ötən əsrin 70-ci illərində, yəni Sovet imperiyasının mövcud olduğu bir dövrdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü ilə yeni bir rayonun təşkil edilməsi dahi şəxsiyyətin mətanətini, iradəsini ortaya qoyurdu. Ömrünün gənclik illərini Ərəb xilafətinə qarşı döyüşə həsr etmiş, onun 6 böyük ordusunu məhv etmiş bir sərkərdənin adını əbədiləşdirmək məhz Ulu Öndər Heydər Əliyevə nəsib olmuşdur. Ötən 40 il ərzində Babək rayonu böyük bir inkişaf yolu keçib. Muxtar respublikanın iri yaşayış məntəqələrindən olan rayon bu gün hərtərəfli inkişafı ilə diqqəti cəlb edir. Bu inkişaf prosesi müstəqillik illəri ilə bağlıdır. Bu gün baxsaq görərik ki, Babək rayonu başdan-başa abadlaşır.

"Şərqin səhəri" qəzeti olaraq üzərimizə düşən ən mühüm vəzifələrdən biri budur ki, rayonun inkişaf salnaməsini yaradaraq gələcək nəsillərə ötürək. Bu, bizim qarşımızda duran ən böyük vəzifələrdən biridir. Bu gün muxtar respublikada mətbuat orqanları dövlətimizin qayğısı ilə əhatə olunub. Çünki cəmiyyətdə mətbuatın rolu hər zaman üstün tutulub. Jurnalistlər bugünün salnaməçiləridirlər. Yəni bugünkü yazılan inkişaf tarixini olduğu kimi gələcək nəsillərə ötürmək lazımdır. Bu mənada rayonun mətbuat orqanlarının üzərinə də mühüm vəzifələr düşür. Bugünkü inkişaf, tərəqqi, yenilik, müasirlik öz əksini olduğu kimi qəzet səhifələrində tapmalıdır. Rayonda abadlıq-quruculuq işləri geniş vüsət alıb. Görülən tədbirlərin davamı olaraq rayonun düşmənlə üzbəüz yerləşən sərhəd məntəqələri olan Yuxarı Buzqov və Aşağı Buzqov kəndlərində kompleks quruculuq işləri aparılır. Bu, bölgə sakinlərinə göstərilən qayğının davamıdır. Bundan əlavə, Babək qəsəbəsindəki məscidin və "İmamzadə" türbəsində bərpa işlərinin aparılması da diqqətdə saxlanılıb. Bu işlər həm də 2018-ci ildə Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı olmasına bir töhfədir. Naxçıvana üz tutan turistlər buradakı türk-islam mədəniyyəti abidələrinin gözəlliyinə şahid olublar. Onlar Naxçıvandakı İslam Mədəniyyəti abidələrinin necə hifz olunduğunu, onlara necə sahib çıxıldığını görüblər. Təbii ki, bunların əsasında müstəqillik illərinin uğurları dayanır.

**Arzu QASIMOV,**
*Babək Rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru:*

- Azərbaycanın beş min illik tarixə malik olan qədim şəhəri Naxçıvan "Gənclər Paytaxtı" seçilib. Bu təsadüfi deyildi. Gözlənilən idi. Ona görə ki, muxtar respublikada dövlət gənclər siyasəti uğurla həyata keçirilir. Gənclər üçün hər cür şərait yaradılır. Biz bundan elə istifadə etməliyik ki, vətənimiz, millətimiz, dövlətimiz üçün daha uğurlu nəticələr əldə edək. Babək Rayon Tarix-Diyarşünaslıq Muzeyi 1981-ci ildən fəaliyyət göstərir. Muzey rayonda ən çox üz tutulan mərkəzlərdən birinə çevrilmişdir. Muzeydə rayonun tarixi, mədəniyyəti qorunub yaşadılır və gələcək nəsillərə təbliğ olunur. Muzey əməkdaşları əhalinin artan mənəvi tələbatını dolğun şəkildə ödəmək üçün hər cür imkanlardan istifadə edir. Muzeyin əsas siması isə bələdçidir. Bələdçi muzey haqqında məlumatları gələn qonaqlara ətraflı çatdırmalıdır. Ona görə də biz bələdçilərin geniş dünyagörüşünə malik olmasını, onların Azərbaycan və dünyanın qabaqcıl muzeylərində gedən iş prinsiplərini öyrənməsini tələb edirik. Muzeyə ekskursiyaya gələnlər çoxdur.

Bu gün muxtar respublikada gəncliyə göstərilən dövlət qayğısı Babək rayonunda da uğurlu həllini tapıb.



**Aytəkin BABAYEVA,**
*müəllimə:*

- Tarixən hər bir xalq öz gələcəyini gənclərlə bağlamışdır. Hər bir ölkənin həyatında gənclərin rolu böyükdür. Gənclər ölkənin iqtisadi, mədəni sahəsində əllərindən gələni edirlər və Naxçıvan MR-də də bu belədir: onlar bir sıra sahələrdə fəallıq göstərirlər.

Azərbaycan Respublikasında gənclər siyasətinin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Liderimiz həmişə gənclərə önəm vermiş, ümid bəsləmişdir. Dəfələrlə qeyd etmişdir ki, Azərbaycanın gələcəyi məhz gənclərin əlindədir. Əsası Ulu Öndər tərəfindən qoyulan gənclər siyasəti bu gün də Ümummilli Liderin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Onun yüksək diqqət və qayğısı nəticəsində Azərbaycan gəncləri fəallıq nümayiş etdirirlər.

**Tusi HƏSƏNLİ,**
*müəllim:*

- Ümummilli Lider Heydər Əliyev hələ o zaman hiss edirdi ki, bu rayonun yaradılması çox vacibdir və bilirdi ki, özülü çürük olan imperiya nə vaxtsa dağılacaq və müstəqil Azərbaycan dövləti yaranacaq. Azərbaycan Prezidenti İlham Əliyev Ümummilli Liderin ənənələrinə sadiq qalaraq nəinki qədim Naxçıvanın, ümumilikdə Azərbaycanın dünyada layiqli yer tutmasına çalışdı və buna nail oldu.

Mən bir təhsil işçisi olaraq qeyd edə bilərəm ki, bu gün biz gənclərə məktəblərdə gözəl şərait yaradılıb. Bu şərait inkişaf etmiş bir çox dövlətlərdə belə yoxdur. Naxçıvan MR-in ərazisində gənclərin potensial imkanlarının üzə çıxarılması üçün hər cür şərait yaradılmışdır. Bu da bizim gələcəyimizin etibarlı əllərdə olduğunu göstərir. Biz gənclərin üzərinə düşən vəzifə milli dəyərlərimizə bağlılığı nümayiş etdirməkdən ibarətdir. Milli dəyərlərə bağlılıq bizim öncə soykökümüzdən irəli gəlir. Ümummilli Lider Heydər Əliyev deyirdi: "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, azərbaycanlıyam".

Azərbaycanın daim çiçəklənməsi, bayrağımızın zirvələrdə dalğalanması, ordumuzun zəfər çalması üçün əlimizdən gələni etməli, bütün fürsətlərdən yararlanmalı və dəyərləndirməliyik. Biz şagirdlərimizi elə yetişdirməliyik ki, millətə, vətənə daim xeyirli və sədaqətli övladlar olsunlar.

**Natiq MƏHƏMMƏDLİ,**
*həkim-oftalmoloq:*

-Naxçıvan şəhərinin "Gənclər Paytaxtı" seçilməsi heç də təsadüfi deyildi. Həqiqətən də gənclərə göstərilən qayğı təqdirəlayiqdir. Babək rayonunda işləyirəm. Pasiyentlərə öz köməyimi göstərməyə çalışıram. Əsas müraciətlər göz zəifliyi ilə bağlıdır. Bunun da əsas səbəbi kompüter, texnologiyanın inkişafından kor-koranə istifadə ilə bağlıdır. Qoruyucu eynəklərdən istifadə etmədikdə gözlərin zəifləməsi halları müşahidə olunur. Bu kimi xəstəliklərin qarşısının alınması üçün Naxçıvanda mühüm tədbirlər görülür. Qonşu ölkələrdə təcrübə mübadiləsində olmağımız işimizə xeyir verir. Bundan mən də yararlanmışam. 2017-ci ildə Türkiyənin Ərzincan şəhərində təcrübədə oldum. Bəhrəsi çoxdur. Çalışıram öyrəndiklərimi xəstələrimə tətbiq edim, onların sağlamlıqlarına qovuşmasına yardımçı olum.

**Elnur ABBASOV,**
*YAP Babək rayon gənclər təşkilatının sədri:*

- Bu gün Azərbaycanın sosial-iqtisadi inkişafının davamlı xarakter daşıması, dövlətçiliyin və müstəqilliyin qorunması Yeni Azərbaycan Partiyasının platformasının təməl prinsipidir. Ötən dövr ərzində Ümummilli Liderimizin müəyyən etdiyi prinsiplərə əsaslanmaqla hər bir partiya üzvü rayonda aparılan dövlətçilik və quruculuq işlərində yaxından iştirak edir. Babək rayonu böyüyüb inkişaf etdikcə YAP Babək rayonu təşkilatı da öz sıralarını genişləndirir. Hazırda təşkilatın 7 min nəfərə yaxın üzvü var ki, onlardan da 3 minə yaxını gənclərdən ibarətdir. Təsadüfi deyil ki, rayonun idarə, müəssisə və təşkilatlarında çalışanların əksəriyyətini gənclər təşkil edir. Rayon gəncləri istər MR, istərsə də ölkədə baş verən yeniliklərin şahidi olur, inkişafdan geri qalmırlar. Onlar dövlətin gənclərə göstərdiyi qayğıya əməli işləri ilə cavab verməyə çalışırlar.

**Aytəkin SÜLEYMANOVA,**
*Gənclər və İdman İdarəsinin əməkdaşı:*

- İdman və bədən tərbiyəsi gənc nəslin fiziki inkişafında və sağlam böyüməsində mühüm rol oynayır. Bu mühüm amil nəzərə alınaraq rayonda idmanın kütləviliyinə xüsusi diqqət yetirilir. Rayon gəncləri hər cür müasir şəraitə malik, gözoxşayan Olimpiya İdman komplekslərində idmanla məşğul olur, MR və ölkə səviyyəli turnirlərdə fəal iştirak edir, yüksək nailiyyətlər qazanırlar. Ölkəmizdə gənclərlə işin düzgün təşkili onların uğurlar qazanmasına səbəb olur.

Bəli, həmsöhbət olduğum gənclərin fikirlərinə mən də şərik çıxaraq qeyd edim ki, bu gün bütün sahələrdə uğurlar əldə edən babəkli gənclər muxtar respublikanın da inkişafında fəallıq göstərirlər. Bu ondan irəli gəlir ki, ölkəmizdə gənclərə göstərilən diqqət və qayğı onlarda ruh yüksəkliyi yaradır, inamla addımlamağa, sabaha nikbin baxmağa vadar edir.

***Adilə SƏFƏROVA,***
***Əməkdar mədəniyyət işçisi***

# Zərərsizləşdirilən sərhəd pozucusunda silah və narkotik vasitələr aşkarlanıb

Noyabrın 3-də saat 04:50 radələrində Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin Biləsuvar rayonunun Biləsuvar kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti ərazisində sərhəd naryadı tərəfindən naməlum şəxsin dövlət sərhədini pozaraq mühəndis çəpərinə yaxınlaşması müşahidə olunub.

DSX-nin Mətbuat Mərkəzindən bildiriblər ki, sərhəd zastavası dərhal "Silaha" komandası üzrə qaldırılıb, xidməti ərazi tam qapadılıb. Sərhəd naryadı tərəfindən "Dayan" əmri verilərək sərhəd pozucusu təqib edilib və havaya xəbərdarlıq atəşi açılıb. Lakin sərhəd pozucusu əmrə tabe olmayıb, üzərindəki çantanı ataraq İran İslam Respublikası istiqamətində qaçmağa cəhd göstərib. Sərhəd naryadı "Dövlət sərhədi haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq, sərhəd pozucusuna qarşı silah tətbiq edib. Sərhəd pozucusu aldığı güllə yarasından hadisə yerində ölüb. Zərərsizləşdirilmiş sərhəd pozucusuna və əraziyə baxış zamanı qara çantada ümumi çəkisi təxminən 12 kiloqram 340 qram olan müxtəlif növ narkotik vasitələr, "Pietro Beretta" markalı tapança, sandıqça və səkkiz patron aşkarlanıb.

Hadisə yerinin bilavasitə yaxınlığında sərhəd pozucusunu qarşılayan göy rəngli "Niva" markalı 99-FC-999 dövlət nömrə nişanlı avtomobildə Biləsuvar rayonunun sakini, 1991-ci il təvəllüdlü Həsənov Elgün Həsənxan oğlu və Mingəçevir rayonunun sakini, 1995-ci il təvəllüdlü Nəsirzadə Orxan Məhəmməd oğlu şübhəli şəxs qismində saxlanılıblar. Araşdırma nəticəsində zərərsizləşdirilmiş sərhəd pozucusunun Cəlilabad rayonunun sakini, 1994-cü il təvəllüdlü Əmirov Tural Əliəşrəf oğlu olması və oktyabrın 31-də "Biləsuvar" dövlət sərhədindən buraxılış məntəqəsindən keçməklə İran İslam Respublikasına getməsi müəyyən edilib.

Hadisə ilə əlaqədar hazırda Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının və Lənkəran Hərbi Prokurorluğunun əməkdaşları tərəfindən zəruri əməliyyat-istintaq hərəkətləri həyata keçirilir.

DSX dövlət sərhədinin etibarlı mühafizəsinin təmin olunması məqsədilə sərhəd mühafizə və əməliyyat-axtarış tədbirlərini davam etdirir.

*"Azərbaycan"*

# Ermənistanda əsgər ölümləri gizlədilir

## Həlak olmuş hərbi qulluqçuların valideynləri ədalətli istintaq tələb edirlər

*Əvvəli 1-ci səh.*

Belə qruplardan biri də Ermənistanda qara geyimli analar adlandırılan erməni əsgər valideynləridir. Onlar müxtəlif illərdə dinc şəraitdə ölmüş övladlarının ölüm hadisələrinin ədalətli istintaqını tələb edirlər.

Bu günlərdə Ermənistan ordusunda müxtəlif illərdə ölmüş hərbi qulluqçuların valideynləri, həmçinin 2017-ci il yanvarın 29-da Vazgen Sarkisyan adına hərbi institutun kursantı Haykaz Barseğyanın atası Ermənistan parlamentində keçirilən iclasa qatılıb. Yerli mətbuatın verdiyi xəbərə görə, Ermənistan parlamentinin insan hüquqlarının müdafiəsi və ictimai məsələlər üzrə daimi komissiyasında ölmüş hərbi qulluqçuların yaxınları ilə komissiya sədri, "Çiçəklənən Ermənistan" fraksiyasnın deputatı Naira Zöhrabyanla parlamentin digər deputatlarının və cəzaçəkmə müəssisəsinin nümayəndələrinin görüşü baş tutub.

Görüşdə ölmüş hərbi qulluqçuların işləri ilə məşğul olan müstəntiqlər, qeyd edilən komissiyanın digər üzvləri və ölmüş hərbi qulluqçuların yaxınları arasında mübahisə baş verib. Valideynlər övladlarının ölüm işi üzrə aparılan istintaq tempindən narazı olduqlarını bildirib və müstəntiqləri ittiham ediblər.

Onlar qeyd ediblər ki, iş sona qədər açıqlanmır. Müstəntiqlər isə bildiriblər ki, bu şəraitdə müzakirə aparmaq mümkün deyil. İclasa sədrlik edən Naira Zöhrabyan vuğrulayıb ki, gəlin bu komissiyanın platforma olmasına çalışaq. İstəmirik ki, siz küçəyə çıxasınız, prezident iqamətgahına və ya başqa yerə gedəsiniz. Gəlin onları da dinləyək. Biz sizi başa düşürük. O, valideynlərin müstəntiqlərdən birinin üzərinə su tökməsini qəbuledilməz hesab edib.

Xatırladaq ki, 2017-ci il yanvarın 29-da hərbi institutun kursantı Haykaz Barseğyan səhər saatlarında institutun idman meydançasında "turnik"dən asılı vəziyyətdə tapılıb. Onun ölümünə görə 4 hərbi qulluqçu Qnel Tevosyan, Norik Sahakyan, Vaçe Sahakyan və Movses Azaryan ittiham olunur.

Bütün bunlar Ermənistan ordusunda hansı vəziyyətin hökm sürdüyünü göstərməklə yanaşı, hakimyyyətə qarşı etiraz aksiyalarının da genişlənməsinə, ölkədə situasiyanın daha da gərginləşməsinə rəvac verir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Beynəlxalq aləm

## ABŞ Pekinin Cənubi Çin dənizindəki fəaliyyətini qanunsuz hesab edir



ABŞ Dövlət Departamenti Pekinin Cənubi Çin dənizində fəaliyyətinin qanunsuz olduğunu bildirmişdir. Bu barədə "İnterfaks" agentliyi xəbər verir.

Dövlət Departamentinin Hind-Sakit okean regionunda Amerika strategiyasının reallaşdırılması haqqında sənədində deyilir ki, Çin Xalq Respublikasının Cənubi Çin dənizində iddiaları qanunsuz və əsassızdır. Qeyd olunur ki, "hüquqi, tarixi, yaxud coğrafi dəyəri olmayan bu iddialar başqa ölkələrə real ziyan vurur".

ABŞ xarici siyasət idarəsi vurğulayır ki, "Pekin ərazi iddialarını təsdiqləməyə yönəlik təxribatçılıq hərəkətləri vasitəsilə ACEAN üzvlərinin əllərinin hasil olunan energetika ehtiyatlarında 2,5 trilyon dollardan çox məbləğə çatmasına maneçilik törədir, eyni zamanda qeyri-sabitliyə və münaqişə riskinə şərait yaradır".

Vaşinqtonun regionda təhlükəsizliyi təmin etməyə sadiq qaldığını təsdiqləmək üçün sənəddə qeyd olunur ki, hazırda ABŞ Silahlı Qüvvələrinin Hind-Sakit okean komandanlığının məsuliyyət zonasında olan Amerika hərbi və mülki personalının sayı 375 min nəfərə çatır və "biz bu mövcudluğu möhkəmləndirməkdə davam edirik".

## PKK-nın liderlərindən biri zərərsizləşdirildi



Türkiyə Silahlı Qüvvələri və Milli Kəşfiyyat İdarəsinin əməkdaşları ölkədə ən çox axtarılan terrorçu Müsluh İkeni zərərsizləşdirmək üçün əməliyyat keçirmişlər. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Məlumata görə, PKK terrorçu təşkilatının üzvü olan İke İraqın şimalında, Mətinə rayonunda aşkar edilmişdir. Qırmızı siyahı ilə axtarılan İke 1990-cı illərdə təşkilata daxil olmuş və bir çox terror aktlarının, o cümlədən Türkiyənin Şemdinli və Çukurça rayonlarında törədilmiş qanlı aksiyaların təşəbbüskarı idi.

## Qərbi Avropanı güclü qasırğa vurdu



Qərbi Avropa sahilini güclü "Ameli" qasırğası vurmuşdur. Bu barədə "Euronews" telekanalı xəbər verir.

Küləyin sürəti saatda 163 kilometrə çatmışdır. Fırtına ucbatından 140 minə yaxın ev işıqsız qalmışdır. Bundan əlavə, nəqliyyatın hərəkəti pozulmuşdur: yıxılan ağaclar avtomobil traslarını və dəmir yollarını kəsmişdir. Qasırğa İtaliya və İspaniyanı da vurmuşdur. 37 yaşlı ispan qadını Madridə parkda gəzərkən üstünə palma ağacı düşmüş və o, həlak olmuşdur.

İtaliyanın Liquriya regionunda Vara çayı məcrasından çıxmışdır. Sesta-Qodano kommunasının meri Marko Traversone telekanala bildirmişdir ki, burada heç vaxt belə daşqın olmamışdır. Hətta 2011-ci ildə çayda suyun səviyyəsi bu qədər qalxmamışdır. Yolları, ətrafdakı evləri su basmışdır.

## NATO Rusiya ilə sərhəddə təlimlərə başladı



Litvada Şimali Atlantika alyansına 11 üzv ölkənin nümayəndələrinin iştirakı ilə NATO-nun "Dəmir qurd" hərbi təlimləri başlamışdır. Bu barədə Litva Silahlı Qüvvələri komandanlığının saytı xəbər verir.

Təlimlərdə Böyük Britaniya, Almaniya, Polşa, ABŞ, Estoniya və digər ölkələrdən 4 minə yaxın hərbi qulluqçu iştirak edəcək. Təlimlərin əsas mərhələsi noyabrın 18-dək davam edəcək. Litva texnikasının daimi dislokasiya yerlərinə qayıtması isə 18-22 noyabra planlaşdırılmışdır.

Pabrad şəhərindəki general Silvestras Jukauskas adına poliqonda keçirilən təlimlərdə 1000 vahidə yaxın hərbi texnika iştirak edəcək. Hərbçilər hücum və müdafiə əməliyyatlarının aparılmasında təlim keçəcəklər.

## Benin sahillərinin yaxınlığında 9 dənizçi oğurlandı




Piratlar Benin sahillərinin yaxınlığında Norveçin "Bonita" quru yük gəmisini ələ keçirərək heyətin 9 üzvünü oğurlamışlar. Bu barədə gəminin sahibi J.J.Ugland şirkətinin saytı xəbər verir.

"Bonita" lövbərdə yükün boşaldılmasını gözləyən zaman cinayətkarlar gəmiyə soxulmuşlar. Şirkətin məlumatına görə, gəmi gips daşıyırmış.

Azadlıqda qalmış dənizçilər yerli hakimiyyət orqanlarını hadisə barədə məlumatlandırmış və gəmi Kotonu şəhər limanına həmin gün gecikmə ilə gəlmişdir.

Norveç gəmisinin oğurlanmış üzvləri Filippin vətəndaşlarıdır. Onların arasında gəminin kapitanı da var.


**Azercell abunəçilərinin nəzərinə**

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 06.11.2019-cu il tarixdə, gecə saatlarında bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra bütün xidmətlərin tam normal əsaslarla fəaliyyət göstərməsi imkanı təmin ediləcəkdir.


**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin Protez-Ortopedik Bərpa Mərkəzi 2019-cu il üçün hesablama texnikası və periferiya qurğularının satın alınması ilə əlaqədar**

**kotirovkaya dəvət edir**

Kotirovka proseduru 08 noyabr 2019-cu il saat 10:00-da Protez-Ortopedik Bərpa Mərkəzində keçiriləcəkdir. Ünvan: S.Ə.Şirvani küçəsi, 3.

**Kotirovkada iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- Azərbaycan Respublikasında və iddiaçıların öz öhdəliklərində vergilərə və digər icbari ödənişlərə dair təmin edilməmiş öhdəliklərin olmaması haqqında arayış;
- iddiaçının notarius tərəfindən təsdiq olunmuş hüquqi statusunu təsdiq edən sənədlər;
- kotirovka üçün qiymət təklifləri.

Qeyd olunan sənədlər 07 noyabr 2019-cu il saat 17:00-a kimi Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin Protez-Ortopedik Bərpa Mərkəzində yaradılmış Tender komissiyasına təqdim olunmalıdır.

İddiaçının hazırladığı kotirovka təklifi zərfə qoyulmalı və bağlı tərəfi iddiaçı tərəfindən imzalanıb möhürlənməlidir.

Kotirovka təklifləri açıldığı gündən sonra 30 bank günü ərzində qüvvədə olmalıdır.

Kotirovka təkliflərinin qəbulu və əlavə məlumat almaq üçün Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin Protez-Ortopedik Bərpa Mərkəzində yaradılmış Tender komissiyasının sədrinə və yaxud əlaqələndiricisinə müraciət edə bilərlər. Tel.: (+99412) 376-80-11 iş, mob.: (+99477) 489-90-00: email: pobm@mlspp.gov.az

Hesablama texnikası və periferiya qurğularının satın alınmasının həyata keçirilməsi bu dəvətnaməyə əlavə edilən əsas şərtlər toplusuna əsasən aparılmalıdır.

Kotirovkada qələbə üçün əsas şərt hesablama texnikası və periferiya qurğularının satın alınması qiyməti, keyfiyyəti və təhvil verilmə müddəti, təşkilatın aidiyyəti işlərdə təcrübəsi, istehsalçı olması, ixtisaslı kadrların mövcudluğu və professionallığı, maliyyə imkanları hesab olunur.

***Tender komissiyası***

**BİLDİRİŞ**

"Azərişıq" ASC tərəfindən 26 oktyabr 2019-cu il tarixdə "Azərbaycan" qəzetində və etender.gov.az saytında elanı verilmiş **Fiberoptik kabel və muftaların** satın alınması üzrə kotirovka sorğusu üzrə müraciət edən iddiaçıların sayı üçdən az olduğu üçün Tender komissiyasının qərarı ilə ləğv olunur.

***Tender komissiyası***

**BİLDİRİŞ**

29 oktyabr 2019-cu il tarixdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Aparatının inzibati binasında sənədlərə əsasən görülmüş əsaslı təmir işlərinin faktiki vəziyyətlə müqayisəsi, inzibati binanın 1, 2, 13, 14, 16-cı mərtəbələrinin ayrıca qiymətləndirilməsi və nəticələrinin sənədləşdirilməsi üzrə xidmətlərin satın alınması üçün keçirilən kotirovka sorğusunda "Privat Co LTD" MMC qalib olmuş və müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

# Hava proqnozu

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, noyabrın 5-də Bakıda və Abşeron yarımadasında səhər yağışın tədricən kəsiləcəyi, günün ikinci yarısında havanın dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.




Mülayim cənub küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 8-11°, gündüz 15-17° isti, Bakıda gecə 9-11°, gündüz 15-17° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək - 770 millimetr civə sütunundan 766 millimetr civə sütununa enəcək, nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gecə və səhər Lənkəran-Astara zonasında yağış yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 4-9°, gündüz 14-19° isti, dağlarda gecə 3° şaxtadan 2°-dək isti, gündüz 5-10° isti olacağı ehtimal edilir.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, noyabrın 5-də Abşeron yarımadasında mülayim gilavar küləyinin arabir güclənəcəyi gözlənilir ki, bu da bəzi meteohəssas insanlarda narahatlıq yarada bilər.

Naxçıvan Muxtar Respublikasında hava əsasən yağmursuz keçəcək. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 2° şaxtadan 3°-dək isti, dağlıq ərazilərdə 6-8° şaxta, gündüz 14-19° isti olacağı proqnozlaşdırılır.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 3° şaxtadan 2°-dək isti, gündüz 5-10° isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava əsasən yağmursuz keçəcək. Səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 2-7°, gündüz 13-17° isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 0-5°, gündüz 10-15° isti, dağlarda gecə 2-5°, gündüz 3-8° isti olacağı gözlənilir.

Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 4-9°, gündüz 14-19° isti olacağı ehtimalı var.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi yerlərdə yağış yağacağı gözlənilir. Səhər dağlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 8-10°, gündüz 14-17° isti, dağlarda gecə 4-7°, gündüz 9-12° isti olacaq.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Amil Novruzov, Bəxtiyar Əzizli, Elçin Vəliyev, Daşdəmir Tağıyev, Şakir Alıyev və Bəhmən Mirzəyev "Respublika" qəzetinin şöbə müdiri Elxan Hüseynbəyliyə əzizi

**RƏHİM MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Respublika Dəri-Zöhrəvi Dispanserinin baş həkimi və kollektivi dispanserin həkimi Şahin Bədəlova atası

**ABDULBƏŞİR BƏDƏLOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Mahmud Məmmədov Günaybank ASC-nin İdarə Heyətinin sədr müavini Elşən Şükürova əzizi

**DİLQƏM DUMAN OĞLU HƏBİBOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Günaybank ASC-nin rəhbərliyi və kollektivi bankın İdarə Heyətinin sədr müavini Elşən Şükürova əzizi

**DİLQƏM DUMAN OĞLU HƏBİBOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 538-97-96, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-72-39, 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 8890
Sifariş 3620
Qiyməti 40 qəpik